www.musavat.com

YENİ MÜSAVAT

Qurucusu: Rauf Arifoğlu Gündəlik qəzet 9 sentyabr 2025-ci il Çərşənbə axşamı № 160 (8770) Qiymәti 60 qəpik

Xəbər

**Bu gün Milli Məclisin xüsusi iclasıdır**

yazısı səh.5-də

Gündəm

**"Gallup"un Zəngəzur əleyhinə təbliğatı**



Ermənilərin əksəriyyəti doğrudanmı Vaşinqton razılaşmalarının əleyhinədir?

yazısı səh.4-də

**"Təzəpir"də ehsan qiymətlərinə etiraz - Şeyxə çağırış**

yazısı səh.10-da

**Bakıda həbsdə olan rusiyalılarla bağlı müzakirələr**

yazısı səh.7-də

**Milli Məclis o qərarını minlərlə ailə gözləyir**

yazısı səh.5-də

**Bakıda tələbələrə kirayə fırıldağı**

yazısı səh.14-də

**Metroda məsafəyə görə ödəniş**

yazısı səh.15-də

**20 nömrəli məktəbin direktoru işdən çıxarıldı**

yazısı səh.14-də

**Santuşa nə qədər təzminat ödənəcək?**

yazısı səh.2-də

**Paytaxtda Süni İntellekt Akademiyası açıldı**

yazısı səh.13-də

**Dünyanın ən təhlükəli ölkələri**

yazısı səh.11-də

**Konstitusiya Günündə referendum?**

yazısı səh.2-də

**Rus generalı Bakı ermənisi öldürüb**

yazısı səh.7-də

**Türklər illər sonra Alıcandan o tərəfə keçir**

yazısı səh.8-də

# AVROPA PAŞİNYAN ÜÇÜN "XİLAS ƏMƏLİYYATI"NA BAŞLADI

Brüssel İrəvanda seçki hazırlıqları üçün çırmandı, Moskva da 2026-ya planlar qurur; Ermənistan uğrunda Qərb-Rusiya didişməsi qızışır...



yazısı səh.6-də

# Azərbaycanın sabiq nazirləri biznesini Britaniyaya daşıyır

Qeyri-leqal "qara pullar" leqallaşdırılır, vətəndaşlıq alınır

yazısı səh.3-də



**Əhəd Abıyev barəsində yayılmış xəbərdən danışdı**

yazısı səh.3-də



**Lalə Şövkət indiyədək Qarabağa niyə getməyib?**

yazısı səh.5-də




**"İlham Əliyevlə şəkil çəkdirmək üçün gələnlər..."- macar nazir kimləri deyir?**

yazısı səh.9-da



## Şadlıq saraylarında yoxlamalar başlayır

**Ölkə ərazisində fəaliyyət göstərən şadlıq sarayları və ictimai-iaşə obyektlərindən havaya atılan tullantıların mövcud ekoloji normativlərə uyğunluğunu müəyyən etmək məqsədilə növbəti monitorinqlərə başlanılır.**

Ekologiya və Təbii Sərvətlər Nazirliyinin mətbuat katibi İradə İbrahimova bildirib ki, Dövlət Ekoloji Təhlükəsizlik Xidməti və Ətraf Mühitin Çirklənməsinin Monitorinq Qrupunun əməkdaşları tərəfindən 13 sentyabr tarixindən etibarən ictimai-iaşə obyektləri və şadlıq saraylarının ətrafında ölçmə işləri aparılacaq.

Monitorinqlər zamanı havaya normadan artıq tullantı atan obyektlər müəyyən ediləcək və onlar barəsində qanunamüvafiq tədbirlər görüləcək.

"Obyekt sahiblərini əvvəlcədən xəbərdar edirik ki, obyektlərindəki təmizləyici qurğuların texniki çatışmazlıqlarını aradan qaldırsınlar və qurğuların filtrlərini vaxtında yeniləsinlər".




## Konstitusiya Günündə referendum?

**Noyabrın 12-də - Konstitusiya Günündə Azərbaycanda konstitusiya referendumu keçirilə bilər. Bu barədə "AzPolitika"ya məlumatlı mənbələrdən informasiya daxil olub. Bildirilir ki, ölkənin ərazi bütövlüyü və suverenliyi tam təmin edildikdən sonra hökumət bir sıra sahələrdə, xüsusilə idarəetmə sahəsində ciddi dəyişikliklərə hazırlaşır.**

Mənbənin məlumatına görə, ümumxalq müzakirəsinə çıxarılacaq əsas təkliflərdən biri dövlət idarəçiliyi sahəsində yeniliklərlə bağlıdır. Buraya Nazirlər Kabineti və vitse-prezidentlik institutunun səlahiyyətlərinin dəqiqləşdirilməsi, rayon icra hakimiyyətlərinin ləğv edilərək regional idarəçiliyə keçid daxildir. Bu çərçivədə Prezidentin təyin etdiyi xüsusi nümayəndələrin idarə edəcəyi 14 iqtisadi zona üzrə vilayətlərin yaradılması nəzərdə tutulur.

Konstitusiyanın 152-ci maddəsinə görə, dəyişikliklər yalnız referendum yolu ilə təsdiqlənə bilər. Referendumun keçirilməsi üçün təşəbbüs səsverməyə azı iki ay qalmış Prezident və ya Milli Məclis tərəfindən irəli sürülməlidir.

Səsvermənin nəticələri sadə çoxluqla (50%+1) müəyyən olunur. Əgər konstitusiyaya dəyişiklik edilərsə, referendumun nəticələri Mərkəzi Seçki Komissiyası tərəfindən rəsmi elan edilir və dərc olunur.

## Daha 198 mina aşkarlandı

**Azad olunan ərazilərdə sentyabrın 1-dən 7-nə qədər 33 tank əleyhinə mina, 165 piyada əleyhinə mina, 726 partlamamış hərbi sursat (PHS) aşkarlanıb və zərərsizləşdirilib.**

Bu barədə Azərbaycan Minatəmizləmə Agentliyi (ANAMA) məlumat yayıb.

Bildirilib ki, 1304.6 hektar ərazi minalardan təmizlənib.

# Santuşa nə qədər təzminat ödənəcək?



**Azərbaycan Futbol Federasiyaları Assosiasiyası (AFFA) sentyabrın 8-də milli komandanın baş məşqçisi Fernandu Santuşu istefaya göndərib. 2024-cü il iyunun 12-də milli komandanın baş məşqçisi təyin olunmuş portuqaliyalının AFFA ilə müqaviləsi 2027-ci ildə bitməli idi. AFFA ötən ilin iyununda Santuşu baş məşqçi postuna təyin edərək onunla 3+1 illik müqavilə imzalamışdı. Belə olduğu halda AFFA-nın mütəxəssisə təxminən 4 milyon manat təzminat ödəniləcəyi gözlənilir.**

1954-cü il təvəllüdlü Fernandu Santuş Portuqaliyanın "Eştoril", "Maritimu" komandalarının müdafiəçisi olub, "Eştoril", "Eştrela", "Portu", "Sportinq", "Benfika" (Portuqaliya), AEK, "Panatinaikos", PAOK (Yunanıstan), "Beşiktaş" (Türkiyə) klublarına, Yunanıstan, Portuqaliya, Polşa milli komandalarına baş məşqçilik edib.

Azərbaycan milli komandası Fernandu Santuşun rəhbərliyi altında 11 oyunda bir qələbə də qazanmayıb. UEFA Millətlər Liqasının 2024-2025 mövsümünün qrup mərhələsində 6 oyuna cəmi 1 xal yığan komanda D liqasına yuvarlanıb. Komanda 4 yoldaşlıq oyununda da yalnız 1 xal alıb.

Sentyabrın 5-i 2026-cı ilin dünya çempionatının seçmə mərhələsinə start verən yığma səfərdə İslandiyaya 0:5 hesabı ilə məğlub olub.

Milli komanda FİFA reytinqində 210 yığma arasında 122-ci yerdədir.

Əvvəllər milli komandanın sükanı arxasında Ələkbər Məmmədov, Ağasəlim Mircavadov, Kazbek Tuayev, Vaqif Sadıqov, Əhməd Ələsgərov, İqor Ponomaryov, Əsgər Abdullayev, Karlos Alberto Torres, Şahin Diniyev, Berti Foqts, Robert Prosineçki, Qurban Qurbanov, Nikola Yurçeviç, Canni De Byazi dayanıblar.

## Alim Qasımovun qızından villa satmaq xəbərinə reaksiya



**"Alim müəllim düz deyib, dostunundur. Belə yalan xəbərləri yaymağa sizlər vasitəçi olmayın. Ayıbdır o boyda insandan. Siz onun sənətindən, verdiyi həyat mücadiləsindən, sənəti üçün nələri fəda verdiyindən danışın, etdiyi xeyirxahlıqlardan danışın. Alim müəllim sənətindən qazandığı pullarla kasıb insanlara köməklik edib həmişə".**

Bunu Demokrat.az-a açıqlamasında Əməkdar artist Fərqanə Qasımova deyib.

O bildirib ki, Alim müəllim 10 milyonluq evdə yaşamalıdır, çünki o, Azərbaycanın muğam səfiridir: "Qızım ailə qurur, onlara kirayə ev axtarırıq. Belə imkanımız olsaydı, kirayə niyə axtarırıq? Bu bir. İkincisi də, dünənki oxuyanların bağı, bağçası, villası var. 70 yaşlı sənətkarların nəyi var, nəyi yox, onları maraqlandırmasın. Türk oxuyanların şəxsi təyyarələri var. Mən hər dəfə namazda dua edəndə bu xəbərləri yayanlara qarğış töküröm. Kim mənim, atamın haqqında yalan şeylər yayırsa, Allahın bəlasına gəlsin. Kimə daş atırsınız atın, bizim ailəyə daş atmayın. Dövlət başçımız, dəyərli Prezidentimiz və muğama xüsusi dəyər verən hörmətli Mehriban xanım hər zaman Alim müəllimin hörmətini əziz tutublar".

## Putinin partiyası azərbaycanlını namizəd göstərdi


Asif Məmmədov

**İllərdir Rusiya ərazisində Azərbaycan diaspor təşkilatlarının rəhbərləri müxtəlif təzyiqlərə, həbs və deportasiyalara məruz qalır.**

"Yeni Müsavat" xəbər verir ki, ancaq ilk dəfə olaraq tam əksinə bir fakt qeydə alınıb: İvanovo vilayəti Azərbaycan diasporunun rəhbəri Asif Abilfət oğlu Məmmədov "Vahid Rusiya" Partiyasının siyahısı ilə deputatlığa namizəd göstərilib.

Məlumata görə, 14 sentyabr 2025-ci ildə İvanovo vilayətində bələdiyyə seçkiləri keçiriləcək. Artıq may ayında "Vahid Rusiya" öz praymeriz seçkilərini keçirərək siyahıları təsdiqləyib. Həmin siyahıda Asif Məmmədovun adı rəsmi olaraq yerləşdirilib və bu, demək olar ki, mandatın təmin olunması anlamına gəlir.

Namizəd kartında Məmmədovun iş yeri ASC "Revis" göstərilib. Şirkətin fəaliyyəti faktiki olaraq dayanmış görünsə də, Məmmədov həm "Vendor" MMC, həm də "Titul-M" MMC şirkətlərinin direktoru kimi qeyd olunur. Bundan əlavə, o, İvanovo vilayəti Azərbaycanlılarının Milli-Mədəni Muxtariyyəti RQƏ və İvanovo şəhəri Azərbaycanlılarının Milli-Mədəni Muxtariyyəti İctimai Təşkilatına rəhbərlik edir.

Bu hadisə həm Rusiya-Azərbaycan münasibətlərinin, həm də diasporun statusunun gələcək gedişatında mühüm dönüş kimi də dəyərləndirilir.


Sərdar Fərəcov

## Xalq artisti reanimasiyaya yerləşdirildi

**Ötən həftənin cümə günündən atamın vəziyyəti ağırlaşdı, Mərkəzi Neftçilər Xəstəxanasına apardıq.**

Bunu APA-ya açıqlamasında xalq artisti Sərdar Fərəcovun qızı Selcan Heydərova deyib. O bildirib ki, bəstəkar ürək çatışmazlığı ilə yanaşı, böyrək çatışmazlığından da əziyyət çəkir: "Sentyabrın 5-i səhər işə gedəndə ürəyində narahatlıq yaranıb. Artıq evə gələndə vəziyyətinin kritik olduğunu gördük. Hazırda Mərkəzi Neftçilər Xəstəxanasının Reanimasiya şöbəsində müalicə alır. Vəziyyəti ağır-stabildir".

## Əmlakları müsadirə olunacaq

**Külli miqdarda mənimsəmədə ittiham olunan "SOCAR-AQŞ" MMC-nin həbsdə olan sabiq baş direktoru Ramin İsayevin cinayət işi üzrə məhkəmə prosesi yekunlaşıb.**

APA xəbər verir ki, Bakı Ağır Cinayətlər Məhkəməsində hakim Vüqar Quliyevin sədrliyi ilə keçirilən prosesdə hökm oxunub.

Hökmə əsasən, Ramin İsayev 14 il müddətə azadlıqdan məhrum edilib. Həmçinin təqsirləndirilən şəxsin əmlakları müsadirə olunub.

Ramin İsayev cəzasını ciddi rejimli cəzaçəkmə müəssisəsində çəkəcək.

Qeyd edək ki, Ramin İsayev 54 milyon manat mənimsəmədə ittiham olunur. O, 2020-ci ildə "SOCAR-AQŞ" MMC-nin baş direktoru vəzifəsindən azad edilib. Ötən il Baş Prokuror yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi tərəfindən həbs edilib.

## 15 ailə Xanyurduna köçdü

**Sentyabrın 8-də köç karvanı ilə Xocalı rayonunun Xanyurdu kəndinə çatan ailələrə yeni evlərinin açarları təqdim olunub.**

15 ailə olmaqla, 46 keçmiş məcburi köçkün doğma yurduna qovuşub. Açarların təqdimat mərasimində Xankəndi şəhərində, Ağdərə və Xocalı rayonlarında Azərbaycan Respublikası Prezidentinin Xüsusi nümayəndəliyinin, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin rəsmiləri və digər şəxslər iştirak ediblər.

YENİ MÜSAVAT
N 160 (8770) 9 sentyabr 2025

# Azərbaycanın sabiq nazirləri biznesini Britaniyaya daşıyır

## Qeyri-leqal “qara pullar” leqallaşdırılır, vətəndaşlıq alınır

**Keçmiş iqtisadi inkişaf naziri Heydər Babayevin həyat yoldaşı Aliyə Babayeva Lüksemburqdakı şirkətini bağlayıb, Avropadakı bütün biznesini Böyük Britaniyaya köçürüb. Bu barədə araşdırmaçı jurnalist Cavanşir Həsənli məlumat və sənədlər yayıb. (Axar.az)**

O bildirib ki, keçmiş nazirin həyat yoldaşına məxsus Lüksemburqdakı MERCURY HOLDİNGS Sarl. 2017-ci ildən bu ilin yanvarına qədər fəaliyyət göstərib və birinci il onun aktivlərinin həcmi 82,3 milyon avro olub: “Aliyə Babayeva Britaniyada eyni adlı şirkəti 2023-cü ilin fevralında təsis edib, bu ilin yanvarında Lüksemburqdakı şirkət ləğv olunan kimi Britaniya Şirkətlər Evində yeni şirkətin benefissiarı elan olunub. Aliyə Babayeva Avropadakı əsas şirkəti üzərindən Gürcüstanın sığorta bazarında aktiv olan JSC PRİME INSURANCE-yə də nəzarət edir. 2023-cü ili əhatə edən son maliyyə hesabatına görə Babayevanın sığorta şirkətinin aktivləri 11 milyon 828 min lari olub”.

Qeyd edək ki, Heydər Babayevin Azərbaycanda yüksək vəzifəyə təyin olunana qədər də Avropada biznesi vardı. Belə ki, o, 1981-ci ildən SSRİ Xarici İqtisadi Əlaqələr Bankında valyuta mühafizəsi müfəttişi, idarə rəisinin müavini, 1992-ci ildən “Xariciiqtisadbank”ın Türkiyədə baş nümayəndəsi, 1997-ci ildən “Mostbank”ın vitse-prezidenti, həmin bankın Böyük Britaniyada baş nümayəndəsi vəzifələrində işləyib. 1999-cu ildən Azərbaycan Prezidenti yanında Qiymətli Kağızlar üzrə Dövlət Komitəsinin sədri, 2005-2008-ci illərdə isə iqtisadi inkişaf naziri olub.

Məlumdur ki, hakimiyyətdən uzaqlaşdırılan Ziya Məmmədovun oğlu, eləcə də ləğv edilmiş MTN şefinin övladları da Böyük Britaniyaya yerləşiblər, bizneslərini bu ölkəyə köçürüblər. Zaman-zaman onların maliyyə qaynaqları ilə bağlı müəyyən hüquqi problemlər olsa da, bu ölkədə qalmaqda, bizneslərini genişləndirməkdə davam edirlər. Heydər Babayev hakimiyyətdən çoxdan uzaqlaşdırılsa da, indi onun ailəsinin də biznesini Britaniyaya köçürməsi diqqət çəkir. Qeyd edək ki, keçmiş kənd təsərrüfatı naziri, sonra isə baş nazir müavini işləmiş İsmət Abbasovun oğlunun da Londonda yerləşdiyi bəllidir. İngiltərəni Azərbaycanın sabiq nazirləri və onların ailə üzvləri üçün cəlbedici edən nədir?




**REAL Partiyasının sədri, iqtisadçı ekspert Natiq Cəfərli** “Yeni Müsavat”a bildirdi ki, İngiltərə, London tək azərbaycanlı korrupsioner keçmiş məmurlar və onların ailə üzvləri üçün deyil, bütün dünyada “qara pulların” işlətmək, leqallaşdırmaq istəyənlər üçün cəlbedicidir: “Çünki Britaniyanın çox yumşaq qanunvericiliyi var. Qeyri-leqal pulların leqallaşdırılması buna görə həmin ölkədə daha rahat həyata keçir. Avropa İttifaqı ölkələrində həddindən artıq requlyativ hüquqi aktlar var. Amma Londonda belə deyil. Britaniyanın özünün hətta yurisdiksiyasında olan ofşor zonaları da var. Məsələn, Virgin adalarının adını qeyd edə bilərik. Həmin ofşor zonalar vasitəsilə qeyri-leqal vəsaitlərin idarə edilməsi daha asan mümkün olur. Londonu cəlbedici edən budur. Rusiya oliqarxlarına da baxsanız görəcəksiniz ki, son 30 ildə Londona 700 milyard dollar vəsait yerləşdirmişdilər. Həmin oliqarxların və onların ailə üzvlərinin bir çoxu bununla həm də Britaniya vətəndaşlığı aldılar. Eləcə də azərbaycanlı oliqarx keçmiş yüksək vəzifəli şəxslərin bəzilərinin də ailə üzvlərinin Britaniya vətəndaşlığı aldığı haqda indiyə qədər məlumatlar yayılıb. Britaniyaya böyük miqdarda vəsait yatırmaq onlara bu imkanı yaradır. Britaniya bu cür şəxslərin həm qeyri-leqal vəsaitlərinin leqallaşdırılması, həm həmin vəsaitlərin böyük qazanc gətirməsi, həm də onlara vətəndaşlıq qazandırması üçün qanunvericiliyinin yumşaqlığı səbəbilə imkanlar yaradır”.

**Ekspert qeyd etdi ki, Britaniyada, xüsusilə Londonda Azad Ticarət Zonalarının (ATZ) mövcudluğu da qeyri-leqal pulların bu ölkəyə yatırılmasına şərait yaradan faktorlardandır:** "Bu zonalar əsasən ixracla əlaqədar olan mal və xidmətlər üçün əlverişli mühit formalaşdırır, həmin belə bu zonalarda orada işləmək icazəsi olan şirkətlərə münasibətdə tənzimləmə mexanizmi minimal səviyyədə tətbiq edilir. ATZ-lərin əlavə faydalarına rüsum və tariflərdən azad edilmə, sadələşdirilmiş inzibati prosedurlar, o cümlədən xammal, maşınqayırma avadanlıqları, ehtiyat hissələr və avadanlıqların gömrük rüsumlarından azad edilməklə idxalını aid etmək olar. Gömrük Prosedurlarının Sadələşdirilməsi və Uzlaşdırılması üzrə Beynəlxalq Konvensiyada (Kioto Konvensiyası) belə ərazilər ”azad zonalar" adı altında tanınır. Eyni zamanda ATZ-nin fəaliyyəti yalnız işgüzar fəaliyyətlə məhdudlaşmır, orada pərakəndə satış müəssisələrinə, yaşayış məntəqələrinə, maliyyə xidmətlərinə, hətta turizm və kazino sektorlarına rast gəlmək mümkündür. Beləliklə, ATZ dövlətin ərazisi daxilində gömrük və ya vergi nəzarəti baxımından xüsusi statusa malik olan, müəssisələrə onların inkişafının stimullaşdırılması üçün xüsusi imtiyazlar verilməklə onların ixrac və ya idxal məqsədləri ilə sahibkarlıq fəaliyyəti həyata keçirdiyi, yaxud xidmətlər təmin etdiyi ərazi və ya rejimdir. Böyük Britaniyadakı ATZ-lər əsasən müəssisə zonaları kateqoriyasına aid ATZ-lərdir. Yerləşdiyi ərazidə vergi imtiyazları və maliyyə qrantları vasitəsilə məxsusi şəhər və kənd ərazisində inkişafa nail olmaq məqsədilə yaradılan iqtisadi inkişaf zonalarıdır. Daha çox inkişaf etmiş ölkələrdə rast gəlinən bir zona növüdür. ATZ sistemində boşluqlar onun cinayət yolu ilə əldə edilmiş əmlakın leqallaşdırılmasında sui-istifadə edilməsi üçün münbit şəraitdir".

❑ **Etibar SEYİDAĞA,**
**“Yeni Müsavat”**

# Əhəd Abıyev barəsində yayılmış xəbərdən danışdı

## Sabiq icra başçısı: “Bu məsələni qapadın, belə bir hal yoxdur...”

**Keçmiş deputat, Daşkəsən rayonunun sabiq icra başçısı Əhəd Abıyev çoxdandır medianın diqqətindən kənardır.**

Əhəd Abıyev Daşkəsən şəhərində icra başçısı işləyərkən mediada fərqlənməyə çalışıb. Gah ata minir, gah boks rinqinə çıxıb kimi isə “əzişdirir”, gah əlinə avtomat alıb hərbi forma geyinir, gah da iclasları açıq havada - təbiətin qoynunda keçirirdi.

Onun Novruz bayramı mərasimlərindən birində boks əlcəkləri geyərək Ermənistan bayrağının maketini sındırması yəqin ki, unudulmayıb.



17 iyul 2023-cü il tarixində Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsindən azad edilən Əhəd Abıyev həmin gün mətbuata verdiyi sonuncu açıqlamada yeni posta təyinat almaq istədiyini gizlətməmişdi: “Hələ gümraham, işləyə bilərəm”.

Modern.az Əhəd Abıyevin harada olması ilə maraqlanıb. Bu günlərdə sosial şəbəkədə Əhəd Abıyevin səhhətində problem yarandığı barədə xəbər yayılmışdı. Ə.Abıyev yayılmış xəbəri təkzib edib: “Bunu kim deyirsə qələt edir, səhv edir. Mən hər gün idmanla məşğul oluram, üzgüçülüyə gedib-gəlirəm. Xahiş edirəm bu məsələni qapadın, belə bir hal yoxdur. Mətbuata deyəsi əlavə sözüm yoxdur, mən siyasətdən tamamilə uzaqlaşmışam. Hazırda təqaüddəyəm”. Əhəd Abıyev başqa bir açıqlamasının olmayacağını vurğulayaraq, jurnalistləri onu narahat etməməyə çağırıb.

Əhəd Abıyev 1958-ci il yanvarın 15-də Masallı şəhərində anadan olub. Azərbaycan Xalq Təsərrüfatı İnstitutunun İqtisadiyyat və planlaşdırma fakültəsini bitirib.

Əmək fəaliyyətinə Masallı Konserv Zavodunda başlayıb. 1977-1979-cu illərdə hərbi xidmətdə olub. 1979-80-ci illərdə Azərbaycan Avtomobil Nazirliyinin Tikinti-quraşdırma idarəsinin ustası, 1980-1982-ci illərdə Bakı şəhərindəki Mənzil İstismar İdarəsində texnik, 1982-1984-cü illərdə “Azərittifaq”da iqtisadçı işləyib.

1984-1991-ci illərdə Bakı şəhər Soveti İcraiyyə Komitəsində böyük müfəttiş, böyük iqtisadçı, 1991-1995-ci illərdə Bakı Şəhər İcra Hakimiyyətində Əhalinin sosial müdafiəsi və məşğuliyyəti şöbəsinin müdiri vəzifələrində çalışıb.

1995-ci ildə hakim Yeni Azərbaycan Partiyasının üzvü olaraq 77 saylı Masallı şəhər seçki dairəsindən Birinci çağırış Milli Məclisin deputatı seçilib. Deputatlıq dövründə Təfəkkür Universitetinin Hüquq fakültəsini bitirib. 2000-ci ildə yenidən 77 saylı Masallı şəhər seçki dairəsindən deputat mandatı əldə edib. 2005-ci ildə eyni dairədən üçüncü dəfə Milli Məclisə deputat seçilib.

Prezidentin 23 fevral 2011-ci il tarixli sərəncamı ilə Əhəd Abıyev Daşkəsən Rayon İcra Hakimiyyətinin başçısı vəzifəsinə təyin edilib.

17 iyul 2023-cü il tarixində icra başçısı vəzifəsindən azad edilib. Evlidir, 2 övladı var.

YENİ MÜSAVAT
N 160 (8770) 9 sentyabr 2025

# "Gallup"un Zəngəzur əleyhinə təbliğatı - arxasında kimlər var...

## ABŞ-də ən etibarlı məlumat mənbələrindən olan təşkilatın keçirdiyi sorğuya görə, ermənilərin əksəriyyəti Vaşinqton razılaşmalarının əleyhinədir, bu nəticələr niyə geniş şəkildə tirajlanır?

**Ermənistan vətəndaşlarının əksəriyyəti avqustun 8-də Vaşinqtonda imzalanmış üçtərəfli bəyannaməyə mənfi münasibət bəsləyir. Erməni mediası "Gallup İnternational"ın sorğusunun nəticələrini geniş şəkildə tirajlayır. "Yeni Müsavat" qeyd edir ki, sorğunun nəticələrini isə təşkilatın Ermənistan nümayəndəliyinin rəhbəri Aram Navasardyan mətbuat konfransında açıqlayıb.**

Sorğunun nəticələrinə görə, respondentlərin 22,8%-i bəyannaməni "tamamilə müsbət", 19,3%-i isə "kifayət qədər müsbət" qiymətləndirib. Eyni zamanda 13,6%-in rəyi "kifayət qədər mənfi", 34%-ki isə "tamamilə mənfi" olub. Daha 7%-i cavab verməkdə çətinlik çəkib, 3%-dən çoxu isə sənəddən xəbəri olmadığını etiraf edib. "Sorğuda iştirak edənlərin demək olar ki, yarısı - təxminən 47%-i bəyannamənin imzalanmasına mənfi rəy verib, lakin respondentlərin demək olar ki, 40%-i bunu kifayət qədər müsbət qiymətləndirib", - Navasardyan qeyd edib.



Sorğuya həmçinin Sünik (Zəngəzur - E.S.) rayonundan Azərbaycana yolun mümkün təminatı ilə bağlı sual da daxil edilib. Respondentlərin 17,4%-i bu ideyanı tamamilə müsbət, digər 18,1%-i isə "kifayət qədər müsbət" kimi qiymətləndirib. Eyni zamanda 11,3% "kifayət qədər mənfi", 47,6% isə "tamamilə mənfi" deyib. "Beləliklə, respondentlərin təxminən 60%-i bu təşəbbüsə mənfi münasibət bəsləyir", - Navasardyan qeyd edib.

İştirakçılara həmçinin Vaşinqton razılaşması nəticəsində regionda uzunmüddətli sülhün bərqərar olmasının perspektivləri barədə də sual verilib. Demək olar ki, 39% dinc ssenariyə ümid etdiyini bildirib (15,8% - "mütləq bəli", 22,8% - "daha çox bəli"). Lakin əksəriyyət - təxminən 55% - bu nikbinliyi bölüşmür (13,5% - "daha doğrusu yox", 41,6% - "qətiyyən yox").

Məlumat üçün deyək ki, "Gallup International Association" adı ilə dünya brendinə çevrilmiş təşkilat 1935-ci ildə yaradılıb. 1947-ci ildə İsveçrənin Sürix şəhərində qeydiyyatdan keçib. "Gallup"ın məqsədi daxili və xarici siyasət məsələləri ilə bağlı müntəzəm ictimai sorğular keçirməkdir. Təşkilat ABŞ-də ictimai rəyin vəziyyəti haqqında ən etibarlı məlumat mənbələrindən biridir. Çox güman, onun beynəlxalq nüfuzunu şərtləndirən də elə məhz budur. 1984-cü ildə Corc Gallupun ölümündən sonra qurum 1969-cu ildə Donald Klifton tərəfindən qurulan psixoloji tədqiqat şirkəti olan Seleksiya Araşdırmaları Birliyi tərəfindən satın alınıb. Bundan sonra müxtəlif ölkələrdə "Gallup" brendinin mülkiyyəti ilə bağlı dartışmalar davam edir.

Yeri gəlmişkən, Rusiya mediasında da Zəngəzur dəhlizinin əleyhinə olanlara tribuna verilir. Belə ki, "Alpha News"un baş redaktoru Tiqran Köçəryanın Pravda.ru-nun xüsusi müxbiri Dərya Aslamovaya müsahibəsi bunu təsdiq edir. Erməni politoloq deyib ki, faktiki Rusiya bölgədə mövqelərini sürətlə itirib. "Ankara ilə diplomatik əlaqələr qurulan kimi isə Gümrüdəki Rusiya bazası, Türkiyə ilə sərhəddəki rus sərhədçilərinin taleyi də sual altında qalacaq. Rusiya Ermənistanın cənub hissəsindən çıxarıldı, indi də ölkənin cənubunda Rusiya konsulluğunun açılmasına icazə vermirlər".

Köçəryan İranın Zəngəzurla bağlı mövqeyi haqda da danışıb: "İran çox zəifləyib. Livanda, Suriyada təsirini itirib. Hizbullah və HƏMAS-ın "başı kəsilib", SEPAH komandirləri bir-birinin ardınca öldürülür. İranın özündə də Tehranın bu regionda müstəqil oyunçu olmasını istəməyən müəyyən hakimiyyət qolu var. Ermənistanda çoxlarının sualı var: İran belə asanlıqla, gözünü qırpmadan Hizbullahı təslim edib Suriyanı, HƏMAS-ı təslim edibsə, Zəngəzur dəhlizi uğrunda Türkiyə və Azərbaycanla döyüşəcək, ya yox? Mənim cavabım "yox"dur".

Yada salaq ki, ABŞ nümayəndə heyəti Zəngəzur dəhlizi və ya "Tramp yolu"nun açılması ilə bağlı konkret addımları müzakirə etmək üçün bu həftə Ermənistana səfər edəcək.

Belə bir vaxtda "Gallup"un Zəngəzur əleyhinə sorğusunun arxasında kimlər var? Maraqlıdır, ermənilər bunu niyə geniş şəkildə tirajlayır?

**Siyasi ekspert Oqtay Qasımov Zəngəzur dəhlizi ilə bağlı rəy sorğusunda nəticələri kifayət qədər yüksək sayır. Onun qənaətinə görə, illərlə beyni zəhərlənmiş, faşist zehniyyətli bir cəmiyyət üçün bu göstəricilər hələ pozitiv haldır:** "Hesab edirəm ki, prosesin gedişində rəqəmlər dəyişəcək. Digər tərəfdən, sualın qoyuluşu da düzgün deyildi. Əgər sual daha doğru qoyulsaydı, fərqli nəticələr ola bilərdi. Bunun da səbəbi var - "Dəmir yumruq". O.Qasımovun sözlərinə görə, hətta revanşist qüvvələr hakimiyyətə gəlsə belə, əldə olunan nəticəni poza bilməzlər. Onun fikrincə, ermənilərin yeni müharibəyə başlamaq potensialı da yoxdur, eyni zamanda Trampın imzası olan sənədə arxa çevirə bilməyəcəklər. Ekspert üçtərəfli 10 noyabr bəyannaməsinin faktiki qüvvədən düşdüyünü fikirlərinə əlavə edib.

**Milli Cəbhə Partiyasının sədr müavini Ehtiram Mehdiyev sorğunun nəticələrində əleyhdarların 50 faizə çatmadığını bildirib. Onun proqnozuna görə, erməni ictimai rəyi mərhələli şəkildə yeni dövrə hazırlanır:** "Paşinyan Çində olarkən Zəngəzur dəhlizi ifadəsinə etirazını bildirmişdi. Bu da məhz revanşist gücləri sakitləşdirməyə hesablanmışdı. Həmçinin daxili auditoriyaya xitab etmişdi. Bu sorğunun nəticələri isə göstərir ki, Zəngəzur koridorunun açılmasına əhalinin heç tam yarısı etiraz atmır. Əslində cəmiyyətin şüurunda dəyişiklik zamanla olacaq. Ermənilər uzun illər bizə nifrət ruhunda yaşayıblar. İkinci Qarabağ müharibəsində ağıllarına gətirmədikləri məğlubiyyətlə üzləşiblər. Onların indi belə düşünməsi çox normaldır".

**E.Mehdiyev sorğunun nəticələrinin geniş piar olunmasında müxalifətin rolunu görür:** "Onlar təbliğatı gücləndirir ki, ən populyar sorğu mərkəzi görün hansı nəticəni ortaya çıxarıb. Yeni xalq razılaşmaları qəbul etmir. Amma 8 avqust anlaşmasından sonra İrəvanın mərkəzi meydanına heç 5 min adam toplaşıb etiraz etmədi, yaxud müxalifətin razılaşmaların əleyhinə mitinq çağırışı olmadı. Bir sorğudan daha üstün praktiki reallıqlardır. Erməni cəmiyyəti susqun və passiv mövqeyi ilə nəticələrlə razılaşıb. Sadəcə, radikal mövqe sərgiləyənlər barışmaq istəmirlər. Lakin nəqliyyat kommunikasiyalarının blokadadan çıxması erməni xalqının sosial rifahına müsbət təsir edəcək".

❑ **Emil SALAMOĞLU, "Yeni Müsavat"**




# "Sülhü vaxtında imzalayın" çağırışı

**Azərbaycan və Ermənistan arasında razılaşdırılmış addımların həyata keçirilməsi Cənubi Qafqazın ümumi dinc inkişafına müsbət təsir göstərəcək və tərəflərin davamlı sülhə və ümumi firavanlığa yaxınlaşmasına kömək edəcək.**

Bu barədə Avropa İttifaqının (Aİ) Avropa Şurasındakı (AŞ) nümayəndəliyinin Azərbaycan və Ermənistan arasında sülh müqaviləsinin paraflanması ilə bağlı bəyanatında belə deyilir: "Aİ sülh müqaviləsinin vaxtında imzalanmasını və ratifikasiyasını təmin etməyi vacib sayır. Sazişin mətni üzrə ikitərəfli danışıqların ötən ilin martında başa çatdırılması 1991-ci il Alma-Ata Bəyannaməsinə uyğun olaraq suverenlik və ərazi bütövlüyünün qarşılıqlı tanınması əsasında münasibətlərin tam normallaşması istiqamətində həlledici addımdır". Bəyanata bir sıra Aİ ölkələri ilə yanaşı, Böyük Britaniya da qoşulub.

Görünən odur ki, sözügedən qurum da sülh sazişinin imzalanmasının tezləşməsində maraqlıdır. Bu səbəbdən hər iki tərəfə çağırış edir, sazişin imzalanmasına siyasi dəstək verir.

Sözügedən məsələni "Bakı-Xəbər"ə şərh edən **millət vəkili Ceyhun Məmmədov**un fikrincə, əslində bu çağırış Prezident İlham Əliyevin rəhbərliyi ilə Azərbaycanın yaratdığı yeni reallığın təsdiqidir: "O baxımdan bu, Azərbaycanın növbəti uğuru kimi qiymətləndirilməlidir. Məlum olduğu kimi, uzun müddət Avropa dövlətləri fərqli yanaşmalar və mövqelər ortaya qoyurdular. Ancaq bu dəfə biz tamamilə fərqli yanaşmanı müşahidə edirik. Söhbət ondan gedir ki, artıq Avroittifaq və qurumun təsisatları da bu məsələyə ciddi reaksiyalar verirlər. Çünki Azərbaycan yeni reallıqlar yaradıb. Əvvəllər isə tamam fərqli baxış və yanaşmalar var idi. Bəzi Avropa ölkələri açıq şəkildə Ermənistanı dəstəkləyirdilər. İndi isə tamam fərqli bir mühitin şahidiyik. O da ondan ibarətdir ki, artıq Avropa real sülhün əldə olunmasını dəstəkləyir və buna hansısa formada praktiki töhfə vermək istəyirlər. Əvvəl biz bunu görmürdük. Gördüyümüz o idi ki, Ermənistan hərtərəfli dəstəklənir, ora hansısa missiya göndərilir və s. Azərbaycana qarşı isə ədalətsiz bir mövqe sərgilənir. O baxımdan bütün bunların dəyişməsini müsbət qarşılayırıq və bunun yeni reallıqlarla əlaqəli olduğunu düşünürük. Azərbaycanın səyləri və aparılan siyasət nəticəsində ölkəmizin mövqeyi nəzərə alındı. Avropa sülh prosesinə real dəstəyini artırmaqdadır. Nəticədə Avropa İttifaqının Avropa Şurasındakı nümayəndəliyinin belə bir bəyanat verməsinin şahidi olduq".

YENİ MÜSAVAT
N 160 (8770) 9 sentyabr 2025

# Milli Məclis 13-cü dəfə o qərarı versə... - minlərlə ailə gözləyir

## Hüquqşünas: "Əgər amnistiya çox geniş miqyasda tətbiq olunarsa, bu, bəzən ictimaiyyət arasında narazılıq doğurur"

**Bu ilin sonuna qədər Azərbaycanda böyük amnistiya elan ediləcəyi ilə bağlı iddialar getdikcə daha çox müzakirə olunur. Məlumatlara görə, amnistiya "Konstitusiya və Suverenlik ili" çərçivəsində qəbul edilə bilər.**

Xatırladaq ki, Prezident İlham Əliyev 2025-ci ili "Konstitusiya və Suverenlik ili" elan edib. Bu da həm Konstitusiyanın qəbulunun 30 illiyi, həm də Azərbaycanın tarixi Qələbəsinin 5 illiyi ilə bağlıdır. Yada salaq ki, 2021-ci ilin noyabrında Milli Məclis Zəfər günü ilə bağlı amnistiya aktı qəbul edib. Müstəqillik əldə edildikdən bu günə qədər Azərbaycanda 12 amnistiya aktı qəbul edilib. Bu aktlar ümumilikdə 160 min nəfərə şamil olunub. Amnistiyanın mühüm xüsusiyyətlərindən biri odur ki, o, əhatə etdiyi maddələr üzrə şəxsləri ya cəza çəkməkdən azad edir, ya onların cəzasını azaldır və ya cinayət məsuliyyətindən azad edir. Təsadüfi deyil ki, bu ilin əvvəlində də Azərbaycanda amnistiya aktının qəbul edilməsi ilə bağlı bir sıra müzakirələr aparılıb. Gözlənilir ki, yaxın aylarda bu məsələ Milli Məclisin gündəliyinə daxil edilə bilər. Yeri gəlmişkən, hazırda cəzaçəkmə müəssisələrində müəyyən sıxlıq mövcuddur və bu, idarəetmə baxımından da çətinliklər yaradır. Amnistiya aktı həmçinin bu yükün azaldılmasına xidmət edə bilər. Aydındır ki, elə cinayətlər var ki, onlara amnistiyanın şamil edilməsi ehtimalı yoxdur. Bu, xüsusilə ağır cinayətlər - terrorçuluq, dövlətə qarşı cinayətlər və digər ağır kateqoriyalı əməllərlə bağlıdır. Bəs amnistiyanın olacağı ilə bağlı iddialar nə qədər realdır? Amnistiya olarsa, tanınmışlardan kimlər azadlığa çıxa bilər?

**"Bakı" Hüquq Şirkətin rəhbəri Natiq Ələsgərov** "Yeni Müsavat"a deyib ki, amnistiya aktı dövlətin humanist siyasətinin bir təzahürü olmaqla yanaşı, həm də ictimai barış və ədalət hissinin möhkəmləndirilməsinə xidmət edir: "Azərbaycan praktikasına nəzər salsaq görərik ki, bütün amnistiya aktları xüsusi tarixi günlərə, əlamətdar ildönümlərinə həsr olunub. Bu baxımdan, 2025-ci ilin "Konstitusiya və Suverenlik İli" elan olunması amnistiya qərarının qəbul olunması ehtimalını daha da gücləndirir. Amnistiyanın tətbiqi hüquqi mexanizmlə ciddi şəkildə tənzimlənir. Cinayət Məcəlləsinin ən ağır maddələri terrorçuluq, dövlətə xəyanət, qəsdən adam öldürmə və oxşar cinayətlər amnistiyanın əhatə dairəsinə düşmür. Adətən ilk dəfə cinayət törətmiş şəxslər, az ağır və ehtiyatsızlıqdan baş verən cinayətlərə görə məhkum edilənlər, həmçinin yaşlı, qadın və azyaşlı övladı olan şəxslər amnistiya aktından yararlana bilirlər".

**Natiq Ələsgərov deyib ki, amnistiya yalnız məhkəmənin hökmü ilə azadlıqdan məhrum edilmiş şəxslərə deyil, həm də istintaqı davam edən, amma məhkəmə hökmü çıxmamış şəxslərə də şamil edilə bilər:** "Məsələn, amnistiya elan olunanda istintaq gedən bir işdə ittiham olunan şəxsin əməlinə amnistiya düşürsə, həmin cinayət işi də xitam oluna bilər. Bu, hüquqi mexanizmin mühüm tərəflərindən biridir. Amnistiyanın qəbulu yalnız məhkumların deyil, minlərlə ailənin sosial-psixoloji yükünün yüngülləşdirilməsi deməkdir".




**Natiq Ələsgərov amnistiyanın cəmiyyət üçün müəyyən risklər yarada biləcəyini də vurğulayır. Onun sözlərinə görə, amnistiya hər nə qədər humanist akt sayılsa da, cəmiyyət üçün müəyyən risklər də yarada bilər:** "Əgər amnistiya çox geniş miqyasda tətbiq olunarsa, bu, bəzən ictimaiyyət arasında narazılıq doğurur. İnsanlar ağır cinayət törətmiş şəxslərin azadlığa çıxmasını təhlükə kimi qəbul edə bilərlər. Ona görə də amnistiyanın hüquqi çərçivəsi son dərəcə dəqiq müəyyən edilməlidir. Ədalət prinsipi amnistiyada əsas meyar olmalıdır. Zərərçəkmişlərin hüquqları nəzərə alınmalıdır. Ağır nəticələr doğuran cinayətlərə amnistiyanın şamil olunması ictimai etimadı zədələyə bilər. Amnistiya yalnız sosial adaptasiya imkanı olan, cəmiyyətə qayıdanda yenidən cinayət törətməyəcəyi ehtimal olunan şəxslər üçün nəzərdə tutulmalıdır".

**Natiq Ələsgərov vurğulayıb ki, amnistiya hər şeydən əvvəl dövlətin humanizm jestidir:** "Amma bu jest həm də məsuliyyətli qərardır. Əks halda, belə addımın mənfi tərəfləri üstün gələ və cinayətkarlıqla mübarizəyə mənfi təsir göstərə bilər".

❑ **E.MƏMMƏDƏLİYEV,**
**"Yeni Müsavat"**

# Bu gün Milli Məclisin xüsusi iclasıdır

**Azərbaycan Konstitusiyasının 88-ci maddəsinin 2-ci hissəsinə əsasən, Milli Məclisin deputatları parlamentin növbədənkənar sessiyasının çağırılması barədə spiker Sahibə Qafarovaya müraciət ediblər.**

Milli Məclisin sədri Sahibə Qafarova müraciəti nəzərə alaraq, Milli Məclisin növbədənkənar sessiyasının çağırılması haqqında sərəncam imzalayıb.

Sərəncama əsasən, sentyabrın 9-da Milli Məclisin növbədənkənar sessiyası çərçivəsində "Vaşinqton razılaşmaları: sülh diplomatiyasının və müdrik liderliyin təntənəsi" mövzusunda xüsusi iclas keçiriləcək.

# Lalə Şövkət indiyədək Qarabağa niyə getməyib?

## "Dünya qarışıb, kim-kimi istəyir, vurur, dağıdır..."



**Ləğv edilmiş Azərbaycan Liberal Partiyasının (ALP) sabiq lideri, keçmiş dövlət katibi Lalə Şövkət səhhəti və siyasi proseslərlə bağlı "Teleqraf"ın suallarını cavablandırıb.**

**- Lalə xanım, səhhətiniz necədir? Müalicələriniz necə gedir?**

- Çox sağ olun ki, məndən nigaran qalmısınız. Deyirlər guya ölürəm, yıxılmışam, danışa bilmirəm və s. Narahat olanlar arxayın olsunlar ki, indi yaxşıyam. Sadəcə olaraq, ürəyim xəstədir və narahatlığım bununla bağlıdır. Mənim yaşımda bu narahatlıqlar normaldır. Bu da olmasa nə olar ki?! Allaha da bir bəhanə lazımdır. Biz də ona bir bahanə verməliyik. Belə də olmaz axı (gülür).

**- Səhhətiniz imkan versə, Qarabağa gedəcəyinizi demişdiniz, bu arzunuzu reallaşdıra bildinizmi?**

- Səhhətim bu uzun yolu getməyə imkan vermir. İnfarkt keçirmişəm, o yolu getmək mənə çətin olar. Heç həkimlər də buna razı deyil.

**- Siyasi prosesləri izləyə bilirsinizmi?**

- Bəli, izləyirəm. Hazırda dünyada o qədər qaranlıq, bulaşıq siyasət aparılır ki, belə siyasətdən danışmağı heç özümə rəva bilmirəm. Demək olar ki, bu gün siyasət yoxdur. İndi ancaq kim-kimə üstün olub amili var. Ancaq güclünün rolu var və ayrı bir şey görmürəm. Dünya qarışıb. Kim-kimi istəyir, vurur, dağıdır. Yeni xoşagəlməz bir mənzərə yaranıb. Düşünmürdüm ki, siyasət bu günə düşə bilər.

**- Azərbaycanla bağlı siyasətə münasibətiniz necədir?**

- Şükür, bizdə sakitlikdir. Torpaqlarımızı geri qaytardıq. Bu, çox böyük uğurdur. Bunu başa düşmək lazımdır. Daxildəki məsələlər də yavaş-yavaş həllini tapacaq. Bundan sonra hər şey yaxşı olacaq. Artıq bunun da vaxtı çatıb. İnanıram ki, bunu da mütləq edəcəklər.

**- Ermənistanla ilkin sülh mətni paraflanıb. Sülhün gələcəyinə dair fikirləriniz varmı?**

- Bəli, inanıram. Düzdür, sülhə dair müəyyən fikirlər səslənir, kənar təhdidlərin olduğu deyilir. Amma bu gün Ermənistanın heç bir gücü yoxdur ki, Azərbaycanla baş-başa gəlsin. Ermənilər gecə yatıb yuxuda görürlər ki, bizimlə dostluq eləsinlər. Bu barədə çox rahatam. Çünki Ermənistanın bu günləri, həyatı, nəfəsi Azərbaycandan asılıdır. Azərbaycan istəsə ona nəfəs verər, istəməsə verməz. Burada ayrı söhbət ola bilməz.



# Azərbaycanda bu qanuna dəyişiklik edilir

**Milli Məclisin Regional məsələlər komitəsinin iclasları başlayır. Məlumata görə, komitənin 2025-ci ilin payız sessiyası üçün ilk iclası sentyabrın 16-na planlaşdırılıb.**

Komitənin gündəliyinə 3 məsələ daxil edilib. Onlardan biri komitənin ötən sessiyadakı fəaliyyəti barədə hesabat, digəri Regional məsələlər komitəsinin 2025-ci ilin payız sessiyası üçün iş planının layihəsidir.

Siyavuş Novruzovun rəhbərlik etdiyi komitənin payız sessiyası çərçivəsində ilk iclası zamanı "Ərazi quruluşu və inzibati ərazi bölgüsü haqqında" qanuna dəyişiklik layihəsi də müzakirə ediləcək.

YENİ MÜSAVAT
N 160 (8770) 9 sentyabr 2025

# Avropa Paşinyan üçün “xilas əməliyyatı”na başladı

## Brüssel İrəvanda seçki hazırlıqları üçün çırmandı, Moskva da 2026-ya planlar qurur; Ermənistan uğrunda Qərb-Rusiya didişməsi qızışır...

**Avropa İttifaqı (Aİ) 2026-cı ildə Ermənistanda keçiriləcək parlament seçkiləri ilə bağlı hazırlığa başlayıb. “Teleqraf” xəbər verir ki, bu barədə Rybar.ru məlumat yayıb. Rusiya portalı bildirib ki, Aİ “ProElect” layihəsi vasitəsilə Ermənistanda keçiriləcək seçkilərə hazırlıqla bağlı genişmiqyaslı proqrama start verib: “Brüssel”dezinformasiyaya qarşı mübarizə" adı altında ölkənin seçki prosesini və media məkanını nəzarətə götürməyi planlaşdırır.**

“ProElect” layihəsi nədir? Bu, “vətəndaş cəmiyyəti subyektlərinin iştirakı və potensialının artırılması yolu ilə "Şərq Tərəfdaşlığı" proqramı ölkələrində seçki proseslərində hesabatlılığı təşviq etmək" məqsədi daşıyan Aİ-nin regional layihəsidir. Məqsəd seçkilərin monitorinqində vətəndaş cəmiyyətinin rolunu “gücləndirməkdir”. Layihə Fransanın ERIM QHT-si tərəfindən xüsusi olaraq “demokratiyaya dəstək” üçün ayrılmış 270 milyon avro büdcə ilə həyata keçirilir. Qrantlar “seçicilərin maarifləndirilməsi” və “nifrət nitqi ilə mübarizə” üçün KİV və QHT-lərə verilir. LGBT təşkilatlarına xüsusi üstünlük verilir.

Müraciətlər sentyabrın 21-dək qəbul edilir, icraya dekabrda başlanacaq və seçkilərdən bilavasitə əvvəl ən azı altı ay davam edəcək. Məsələ burasındadır ki, ABŞ-da USAİD bağlandıqdan sonra Qərbin maliyyələşdirməsinin əsas yükü Aİ və Böyük Britaniya strukturlarının üzərinə düşüb".

Mənbənin iddiasına görə, Aİ-nin hədəfi seçkilərdə baş nazir Nikol Paşinyan və komandasının qələbəsinə nail olmaqdır: “Qərb müşahidəçiləri artıq Ermənistanda müxalifətin həbslərinə, cinayət işlərinin saxtalaşdırılmasına göz yumurlar. Bu mexanizm artıq Ukrayna və Moldova timsalında uğurla sınaqdan keçirilib”. Portal əlavə edib ki, hazırlıq işlərinə seçkilərə hələ 8 ay qalmış başlanıb: “Bu, planlaşdırılan əməliyyatın miqyasından xəbər verir”.

Ermənistanda gələn ilin yayında keçiriləcək kritik seçkilərdə Moskvanın da öz planları var. Zəngəzurla bağlı Vaşinqton razılaşması təkcə Rusiyanın deyil, İranın da mühafizəkar qanadını ciddi narazı salıb. Amma İranın Ermənistanın daxilinə təsir imkanları zəifdir. Rusiyanın isə təsir imkanları bir az daha üstündür. Həmçinin Kremlin Ermənistanda dəstəkçiləri mövcuddur. Eyni zamanda hərbi bazası da var. Buna baxmayaraq, Rusiyanın Ermənistanda təsir imkanı əvvəlkinə nisbətən zəifləyib. Çox güman ki, rəsmi Moskva Ermənistandakı növbəti seçkilərdə hakimiyyəti dəyişməyə çalışacaq. Aİ-nin indidən təşəbbüsü əla alması da buna işarədir.



**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə** qeyd etdi ki, Ermənistanda QHT-lərin əksəriyyəti iqtidara yaxındır və Qərbdən dəstəklənir: “Məsələn, Gürcüstanda əksinədir, QHT-lər müxalifyönlüdür, Avropadan maliyyə dəstəyi alır. Ermənistanda isə müxalifət və onlara yaxın təşkilatlar rusperəstdir deyə Qərbdən qrant ala bilmirlər. Bu baxımdan, Paşinyan hakimiyyətinin bəxti gətirib və əli gücüdür. Çünki vətəndaş cəmiyyətinin üzvləri davamlı olaraq təbliğat aparır, Ermənistan hakimiyyətinin avrointeqrasiya kursunu ictimai rəyə təqdim edirlər. Bu piar isə xeyli dərəcədə təsir edib. Əsasən də gənc nəslin şüurunda dəyişiklik etməyə çalışırlar. Ermənilərin yaşlı nəsli Rusiya sevdasından əl çəkmir. Ona görə də seçkidə əsas iş gənclərlə aparılacaq. Təbii ki, Avropa İttifaqı, onun dominant ölkəsi Fransa Ermənistanda Paşinyanın qələbəsini arzulayır. Bu səbəbdən, yeni texnologiya ilə seçkilərdə qalib olması üçün indidən addımlar atılır”.

**Ekspert vurğuladı ki, kuryoz hadisə, fors-major vəziyyət yaranmasa, Paşinyanın partiyası seçkilərin qalibi olacaq:** “Əlbəttə ki, daha az səslə parlamentdə hakim partiya olması gözlənilən-dir. Paşinyanın əvvəlki reytinqi də yoxdur, müxalifətin təbliğatı da az-çox təsir edir, Azərbaycanla razılaşmalar məsələsində ona ittihamlar yağdırılır, guya təslimçi akta qol çəkib, güzəştlərə gedib və sair... Bununla belə, Rusiya radikal addımlara getməsə, Paşinyanın partiyası yenə də digər partiyaları əzib keçəcək. Sadəcə, çətin seçki olacaq. Əgər müxalifət birləşərsə, blok şəklində seçkilərdə iştirak edərsə, iqtidar üçün daha ciddi problemlər meydana gələ bilər. Odur ki, Qərb Paşinyanın qələbəsini təmin etmək üçün indidən çırmanıb. Onlar daxildə piarı gücləndirəcəklər”.

**Ç.Qənizadə bildirdi ki, ümumiyyətlə, Ermənistanda QHT-lərin cəmiyyətə təsiri var:** “Məncə, Tramp administrasiyası da Paşinyana dəstəyini əsirgəməyəcək. Ağ Evdə əldə olunan nəticələrin qorunub saxlanılması və inkişaf etdirilməsi ABŞ-nin hazırkı rəhbərliyinin marağındadır. Bunun üçün Vaşinqtona Paşinyanı hakimiyyətdə saxlamaq lazımdır. Hakimiyyət dəyişikliyi isə 8 avqust razılaşmalarının pozulması, yaxud inkişafının tormozlanmasına səbəb ola bilər. Bunu Brüssel və Vaşinqton yaxşı anlayır. Ən azından Zəngəzur dəhlizinin Ermənistanla ABŞ arasında imzalanan sənəd əsasında "Tramp marşrutu" adlanması Ağ Ev liderinin Paşinyana dəstəyini artırmalıdır. Tramp yaxşı bilir ki, Rusiya həmin dəhlizə nəzarət etmək istəyir. Əgər Paşinyan məğlub olarsa, Rusiya bağlantısı olan qüvvə hakim partiyaya çevrilərsə, anlaşmaları pozmağa cəhd edə, dəhlizə kontrolu Rusiyaya vermək üçün 10 noyabr sənədinin 9-cu bəndinə istinad edə bilər. Onsuz da Rusiya üçtərəfli bəyannamədən əl çəkmir və Zaxarova sazişin aktuallığını saxladığını bəyan edir. Çünki Rusiya gələnilki seçkilərlə bağlı müəyyən qədər ümidlidir".

**Ç.Qənizadənin fikrincə, Moskva güman edir ki, Paşinyanın məğlubiyyəti üçün bütün resurslarını səfərbər edəcək və hədəfinə çatacaq, sonra 10 noyabr sənədini diriltmək istiqamətində addımlar atacaq:** “Amma bunların hamısı xülyadır. Rusiyanın o nüfuzu və təsir imkanları qalmayıb. İkincisi, Azərbaycanın rəyi, qətiyyətli mövqeyi hər şeydən əvvəldir. Üçüncüsü, Qərb Rusiyanın Cənubi Qafqazdan tamamilə çıxması üçün bura qədər böyük iş aparıb, fürsəti əldən vermək istəməzlər. Ona görə də Avropa İttifaqı müxtəlif layihələrlə Paşinyanın xilası üçün seçkilərə hazırlığa başlayıb. Gələn il Ermənistan uğrunda Qərb-Rusiya qarşıdurmasına şahid olacağıq”.

❑ **Emil SALAMOĞLU,**
**“Yeni Müsavat”**




## Aİ gürcülər üçün vizasız rejimi ləğv edəcək?

### Gürcüstan əhlinin 78 faizi Avropa deyir

**2017-ci ilin yazından Gürcüstan vətəndaşları Avropa İttifaqı məkanına vizasız səyahət edə bilir. 2024-cü ildən bəri Qərb dairələri, o cümlədən Avropa İttifaqı ilə Gürcüstan hökuməti arasında gərginlik var. Avropa İttifaqı ölkənin demokratik dəyərlərdən uzaqlaşmasını əsas gətirərək geniş islahatlara çağırır, əks halda, Gürcüstanı vizasız rejimi ləğv edəcəyi ilə hədələyir.**

Vizasız səyahət Şengen zonası ölkələrini əhatə edir. Dövlət sərhədlərindən asan keçid sistemi olan Şengen zonasına Avropa İttifaqının 25 ölkəsi (Almaniya, Avstriya, Belçika, Bolqarıstan, Çexiya, Danimarka, Estoniya, Finlandiya, Fransa, Xorvatiya, İspaniya, İsveç, İtaliya, Latviya, Litva, Lüksemburq, Macarıstan, Malta, Niderland, Rumıniya, Polşa, Portuqaliya, Slovakiya, Sloveniya, Yunanıstan), həmçinin İslandiya, İsveçrə, Lixtenşteyn, Norveç daxildir.

Şengen zonasının əsasını 1985-ci il iyunun 14-ü Almaniya, Belçika, Fransa, Lüksemburq və Niderland qoyub. Sərhəd rejiminin yumşaldılmasını nəzərdə tutan saziş Lüksemburqun Şengen kəndi yaxınlığında imzalanıb.

Avropa İttifaqına Şengen zonasında olmayan İrlandiya və Kipr də daxildir. 2022-ci il martın 3-də quruma qoşulmaq üçün rəsmi ərizə verən Gürcüstan 2023-cü il dekabrın 14-də Avropa İttifaqı üzvlüyünə namizəd statusu alıb.

Gürcüstanda hökumət 150 yerlik parlamentdə azı 76 mandatı olan partiya qurur. 2012, 2016, 2020 və 2024-cü illərin parlament seçkilərində Gürcü Arzusu - Demokratik Gürcüstan Partiyası qalib gəlib.

Novator.az bildirir ki, Qafqaz Tədqiqat Resurs Mərkəzinin keçirdiyi sorğunun nəticələrinə görə, respondentlərin 78 faizi vizasız rejimin ləğvinin Gürcüstanın ziyanına olacağını düşünür.

Hesabata əsasən, respondentlərin 22 faizi 2017-ci ildən bəri vizasız rejimdən yararlanıb.

8-12 avqust arası 1333 nəfər arasında keçirilmiş sorğuya qatılanların 51 faizi vizasız rejimin mümkün ləğvində hakim partiyanı təqsirli biləcəyini vurğulayıb.

Sorğu iştirakçılarının 78 faizinin ölkənin Avropa İttifaqına üzvlüyünə tərəfdar olduğu qeyd edilir.

YENİ MÜSAVAT
N 160 (8770) 9 sentyabr 2025

# Bakıda həbsdə olan rusiyalılarla bağlı müzakirələr

## Gərginlik nə qədər davam edəcək?



**Son günlər Bakıda saxlanılan və barələrində cinayət işi açılmış 13 Rusiya vətəndaşı ilə bağlı müzakirələr artıb. Həftəsonu belə bir xəbər də yayılıb ki, Rusiya gərgin münasibətlərin sonlandırılması üçün Bakıdakı rusların azadlığını şərt kimi irəli sürüb. Rusiya Xarici İşlər Nazirliyi isə bəyanat verərək bu iddiaları təkzib edib.**

"Rusiya XİN mətbuat katibi bu ilin iyul ayında Azərbaycanda 13 Rusiya vətəndaşının həbsinin guya Rusiya-Azərbaycan münasibətlərinin pisləşməsinə səbəb olduğunu iddia edib və münasibətlərin yaxşılaşması üçün onların azadlığa buraxılmasını şərt kimi irəli sürüb. Mətbuat katibi elə söz deməyib. Bu il sentyabrın 4-də Şərq İqtisadi Forumundakı brifinqində Rusiya Xarici İşlər Nazirliyinin rəsmi nümayəndəsi Zaxarova deyib: "Rusiya vətəndaşlarının azadlığa buraxılması Rusiya ilə Azərbaycan arasında münasibətlərin normallaşması istiqamətində mühüm addımdır. Mövzu bu il avqustun 22-də Həştərxanda keçirilən İqtisadi Əməkdaşlıq üzrə Rusiya-Azərbaycan Hökumətlərarası Komissiyasının iclası zamanı ətraflı müzakirə olunub. Rusiyanın mövqeyi Azərbaycan nümayəndə heyətinə ətraflı şəkildə çatdırılıb".

Yada salaq ki, ombudsman Səbinə Əliyeva Bakıda saxlanılan "Sputnik-Azərbaycan"ın əməkdaşları və digər Rusiya vətəndaşlarının ailələri ilə görüşdüyünü açıqlayıb: "Bu qrup məhbusların ailə üzvlərinin Ombudsman Aparatında qəbulunu həyata keçirir, daxil olan müraciətlər vaxtında və qanunvericilik çərçivəsində araşdırılır və həll olunur, zərurət yarandıqda köməklik göstərilir. Onların ailə görüşü bir neçə gün əvvəl baş tutub".

Ombudsman həmçinin qeyd edib ki, həbs olunan Rusiya vətəndaşları saxlanma şəraiti və onlara münasibətlə bağlı heç bir şikayət etməyiblər.

Açıqlamada qeyd olunur ki, saxlanılan rusların məsələsi Milli Preventiv Qrupun daimi nəzarətindədir. Qrupun nümayəndələri mütəmadi olaraq Ombudsman Aparatında ailə üzvlərini qəbul edir, onların hüquqlarına Azərbaycan qanunvericiliyi çərçivəsində riayət olunmasını təmin edirlər.

Qəribədir ki, Rusiyanın "Svobodnaya pressa" nəşri ombudsmanın açıqlamasından belə bir rəy yaratmağa çalışıb ki, guya Bakı saxlanılanları Rusiya ilə "mübadilə"yə hazır olduğuna işarə edir.

**Politoloq Mixail Neyjmakov** nəşrə deyib ki, bu açıqlama Bakının Rusiya ilə "danışıqlar pəncərəsi"nin tam bağlanmadığına dair siqnallardan biri ola bilər.

"Lakin bu, yeganə siqnal deyil. Danışıqlar prosesinin davam etməsinin göstəricisi xarici siyasət və ya təhlükəsizlik bloku ilə bağlı olmayan yüksək rütbəli məmurlar səviyyəsində təmaslardır. Məsələn, Rusiya Federasiyasının idman naziri Mixail Deqtyarev sentyabrın əvvəlində Rusiya nümayəndə heyətinin Bakıya getməyə hazır olduğunu bəyan edib", - deyə o bildirib.

**Politoloq iddia edib ki, Bakı rusiyalılara qarşı rəsmi ittiham irəli sürüldüyü üçün onların azadlığa buraxılması üçün müzakirələr çətin ki, olsun:** "Azərbaycanda saxlanılan ruslara qarşı rəsmi ittiham irəli sürüldüyündən, çətin ki, kimsə onların azadlığa buraxılma şərtlərini açıq şəkildə müzakirə etsin. Bir qayda olaraq, belə hallarda danışıqlar bağlı qapılar arxasında aparılır. Bir az daha az ehtimal olunan ssenari ondan ibarətdir ki, saxlanılan ruslara qarşı işlərə məhkəməyə qədər xitam verilə bilər. Eyni zamanda Rusiya vətəndaşları Bakı ilə Moskva münasibətlərində "ərimə" başlamazdan əvvəl azad oluna bilərlər".

Azərbaycan-Rusiya münasibətləri niyə yumşalmır? Gərginlik nə qədər davam edəcək?

**Demokratiya və İnsan Hüquqları Komitəsinin sədri Çingiz Qənizadə** "Yeni Müsavat"a bildirdi ki, Rusiya mediası və ictimai-siyasi dairələri tərəfindən Azərbaycana qarşı hücum kampaniyası dayanmır. Çünki sifariş Kremldən verilib və hələ ki Kreml bu kampaniyanı dayandırmaq sifarişini verməyib. Ona görə də kampaniya davam etdirilir: "Moskvanın siyasəti belədir. Azərbaycanı qanunları pozduqları üçün haqlı olaraq saxladığı ruslar məsələsində geri çəkilməyə vadar etmək istəyirlər. Eyni zamanda məlum təyyarə faciəsi ilə bağlı Azərbaycanı haqlı tələblərindən geri çəkindirməyi qarşılarına məqsəd qoyublar. Azərbaycan hər iki məsələdə haqlı mövqedədir. Ona görə də haqlı mövqeyində israr edir. Rusiya XİN-in sözçüsü keçən həftə bəyan etdi ki, vurulan təyyarəyə görə Azərbaycana Rusiya tərəfindən kompensasiya ödənilib və bu məsələni bitmiş hesab edirlər. Bu, yanlış və ictimai rəyi aldatmağa hesablanmış açıqlama idi. Bu, bir daha sübut etdi ki, Rusiya tərəfi Azərbaycanla münasibətlərin düzəlməsi kursunu deyil, gərgin münasibətlərin qalması kursunu götürüb. Bundan sonra belə vəziyyətin nə qədər davam etdiriləcəyi də məlum deyil".

**Hüquq müdafiəçisi vurğuladı ki, Azərbaycan tərəfi Rusiya ilə münasibətlərin gərgin olaraq davam etməsində maraqlı deyil. Vəziyyətin düzəlməsi istiqamətində Rusiya addım atmır:** "Azərbaycan Rusiyadan heç bir qanunazidd, beynəlxalq qanunlara və konvensiyalara zidd heç bir tələb etmir. Azərbaycan Rusiyanın heç bir vətəndaşını qanunsuz olaraq saxlamır. Saxlanılan rusiyalılar Azərbaycan qanunlarını pozduqları üçün saxlanıblar və onlara qarşı saxlanma yerlərində heç bir pozuntuya, qanunsuzluğa yol verilmir. Rusiya imperiya ambisiyası ilə hərəkət edən dövlət olduğu üçün üzr istəməyi, kompensasiya tələbini yerinə yetirməyi, cinayətkarları cəzalandırmağı özünə sığışdırmır. Həmçinin imperiya ambisiyası onda belə bir düşüncə yaradıb ki, Rusiyanın vətəndaşları-rusların istədiyini edə, Azərbaycana qarşı, Azərbaycanda qanunları poza bilər, onlara qarşı heç bir qanuni tədbir görülə bilməz. Bax, Rusiyanın bu cür yanaşmaları münasibətlərin düzəlməsinə imkan vermir".

❑ **Etibar SEYİDAĞA,**
**"Yeni Müsavat"**



# Novosibirskdə azərbaycanlı qəhrəman

**Rusiyanın Novosibirsk şəhərində sadə yükdaşıyan işləyən Azərbaycan vətəndaşı Rza Rzayev yerli istilik sisteminin partlaması və qaynar suyun fontan vurması zamanı həyatını riskə ataraq, köməksiz vəziyyətdə qalan uşaqları və qocaları xilas edib. Rza Rzayev sakinlərin ona minnətdarlıq əlaməti olaraq topladıqları 71524 rubl (təxminən 1380 manat) vəsaiti sağlamlıq imkanları məhdud uşaqların ehtiyacları üçün bağışlamaq qərarına gəlib.**

Kult.az xəbər verir ki, bu barədə tarixçi alim Zaur Əliyev qeyd edib.

"Novosibirskdən olan Aleksandr Oşçepkov onun insanları xilas etməsi zamanı fotosunu çəkib və bu foto ilə Andrey Stenin adına X Beynəlxalq Fotojurnalistika Müsabiqəsinin "Dövrümüzün Qəhrəmanı" nominasiyasında qalib olub.

Rusiyada bu cür insanların sayı yüzlərlədir. Təkcə Rusiyada yox, dünyanın bir çox ölkəsində xalq qəhrəmanı olan azərbaycanlılar barədə mediada kifayət qədər məlumat var", - o bildirib.




# Azərbaycanlı Ukrayna kəşfiyyatına "işləmək" ittihamı ilə tutuldu

**Rusiya Federal Təhlükəsizlik Xidməti (FTX) Stavropolda Azərbaycan vətəndaşını saxlayıb. Bu barədə Rusiya FTX-nin İctimaiyyətlə Əlaqələr Mərkəzi məlumat yayıb.**

"Stavropol diyarında Rusiya Federasiyasında qadağan olunmuş Ukrayna terror təşkilatına qoşulmuş, onun rəhbərlərinin göstərişi ilə təxribat və terror aktları törətmək üçün nəzərdə tutulmuş bir sıra obyektlərə, o cümlədən Yessentuki və Stavropol şəhərlərində hüquq-mühafizə orqanlarının inzibati binalarına və nəqliyyat vasitələrinə ətraflı kəşfiyyat aparan Azərbaycan vətəndaşı saxlanılıb", - məlumatda qeyd olunub.

Onun əvvəllər Azərbaycan Silahlı Qüvvələrinin xüsusi təyinatlı dəstəsində xidmət etdiyi bildirilib.

Qeyd edək ki, son vaxtlar Rusiyada Ukrayna kəşfiyyatı ilə əməkdaşlığı adı altında azərbaycanlıların həbsi xəbərləri artıb. Bu günlərdə də Azərbaycan əsilli qadın məhkəmə hökmü ilə 5 il müddətinə azadlıqdan məhrum edilib. FTX-nin İctimaiyyətlə Əlaqələr Mərkəzinin məlumatına görə, 1970-ci il təvəllüdlü, Rusiya Federasiyası vətəndaşı olan həmin qadın Ukrayna Müdafiə Nazirliyinin Baş Kəşfiyyat İdarəsi ilə əməkdaşlıqda təqsirli bilinib.

Rəsmi açıqlamaya əsasən, qadının fəaliyyəti dövlət təhlükəsizliyinə zidd qiymətləndirilib və o, koloniyaya göndərilib.

Bu günlərdə Ukraynanın Azərbaycandakı səfiri Yuri Qusev Haqqin.az saytına müsahibəsində bu barədə deyib ki, Ukrayna xüsusi xidmət orqanlarının əsas məqsədi ədalətsiz müharibəyə cəlb edilmiş dövləti və onun vətəndaşlarına qarşı təhlükələri dəf etməkdir. Bu cür iddialar da Rusiyanın Ukrayna və Azərbaycana qarşı növbəti informasiya təxribatı kimi qiymətləndirilə bilər.



İqor Kirillov

# Rus generalı Bakıda doğulan erməni öldürüb

**Rusiyanın Müdafiə Nazirliyinə tabe olan Radiyasiya, Kimyəvi və Bioloji Müdafiə qoşunlarının rəisi, general-leytenant İqor Kirillovun qətlə yetirilməsi ilə bağlı yeni təfərrüatlar ortaya çıxıb.**

Modern.az xəbər verir ki, Rusiya hakimiyyətinə yaxın media orqanları cinayət işində daha bir nəfərin adının hallandığını iddia edib.

Rusiya mediasında yayılan məlumatlara görə, hadisə ilə bağlı saxlanılan şəxslərdən birinin adı Robert Səfəryandır, milliyyətcə erməni olan Səfəryanın Bakıda anadan olduğu, sonradan Rusiya vətəndaşlığı aldığı bildirilir.

İstintaqın məlumatına əsasən, 17 dekabr 2024-cü il səhər saatlarında Moskvada, Ryazan prospektində yerləşən binanın qarşısında partlayış baş verib. Partlayış nəticəsində general İqor Kirillov və onun köməkçisi İlya Polikarpov həlak olub. Araşdırmalara görə, təxminən 300 qram trotil ekvivalentində olan partlayıcı qurğu yaşayış binasının qarşısında dayanmış elektrik skuterinə yerləşdirilib və uzaqdan idarə olunaraq işə salınıb.

Cinayət işi çərçivəsində daha əvvəl 29 yaşlı Özbəkistan vətəndaşı da saxlanılıb, o, ifadəsində "Ukrayna xüsusi xidmət orqanları tərəfindən ələ alındığını" iddia edib.

Robert Səfəryanın adı istintaq materiallarında keçsə də, onun hadisədəki rolu və təqsiri hələ tam sübuta yetirilməyib.

YENİ MÜSAVAT
N 160 (8770) 9 sentyabr 2025



# Dana əti ilə geopolitika arasında əlaqə

Zamin HACI
zaminhaci@gmail.com

"Mən öləndə,
Köhnə portağal meşəsində
İstənilən çiçəyin içində basdırarsınız"
**(Federiko Qarsia Lorka)**

**Çox çətin oldu, ancaq AFFA Santuş müəllimi nəhayət qovmağı bacardı. Bu münasibətlə zəhmətkeşlərimizi təbrik edirəm. Ziyanın yarısından qayıtmaq məsələsi...**

Hərçənd ziyanın harasından qayıtmışıq, heç bunu bilmirik ki. Çün, Santuş müəllim kimi uğursuz məşqçi ilə müqavilənin hansı qiymətə bağlandığı onsuz uca millətə məlum deyildi. Sadəcə, şayiə var idi, ildə 1,5 milyon avro alacaqmış. İndi isə yenə şayiə var, deyirlər hökumətimiz Santuşa kompensasiya olaraq 4 milyon avro ödəyəcəkdir. Bəziləri 5 milyon yarım deyir. Hansı düzdür, onu ancaq verən və alan bilir.

Bayaq "hökumətimiz" sözünü səhvən yazmadım, Azərbaycanda hər bir şey kimi futbolun da baş sponsoru neft və qazımızdır. Ona görə yetim zəhmətkeşlərin tam haqqı var idi ki, Santuş tipli uğursuzu, çalışdığı bütün komandalardan bivaxt qovulub kompensasiya alaraq aradan cırmış ağsaqqalı bura gətirdikləri üçün kimlərdənsə hesabat tələb etsinlər. Lakin biz siyasətə qarışmırıq, ona görə hesabat da istəmirik. Beş aşağı, beş yuxarı, itaparan olsun, necə deyərlər. Ancaq adama bir az pis gəlir ki, hansısa jurnalistlər guya beş-on min manat vergi gizlətdikləri üçün aylardır həbsdə saxlanılır, lakin 5-10 milyon manatımızı Santuşa qapdıranlar papağı yan qoyub gəzir.

Ta keçib, təklif edirəm Santuşun yerinə Mourinyo dəvət olunsun. Bütün parametrləri uyğun gəlir: o da son illər hər yerdə uğursuz nəticələr göstərir, müqaviləsinə vaxtsız xitam verilərək qovulur, yaxşı kompensasiya alıb rədd olur. Üstəlik, hər ikisi portuqaldır! ("Qalya, Portuqaliya" anekdotunun məqamıdır, ancaq 18 plyusdur, məktəb də açılmağa hazırlaşır, yaza bilmərəm. Bilənlər bilməyənlərə danışsın).

Mövzudan uzaqlaşmaq üçün qeyd edim ki, yəqin bu payız portağalın bazar qiyməti xeyli qalxacaqdır. Portuqalın apardığı vəsait portağalın qiyməti ilə kompensasiya edilməlidir. Dünyada heç nə təsirsiz ötüşmür. Buna kəpənək effekti deyirlər. Məsələn, dana ətinin qiymətinin qalxması ilə Binəqədi yolunda aparılan qazıntı arasında əlaqə var. Bir az uzun əlaqədir, ancaq görən görür. O cümlədən limonun bahalaşması bulvar idarəsi müdirinin yeyintisi ilə bağlıdır.

Təzəlikcə ABŞ səfirliyi mebel, divan-filan satışa çıxarmışdı. Sizcə, bunun səbəbi Trampın qənaət rejimi siyasətidirmi? Yox. Buna bizim bir yoldaş səbəb olubdur. 20 il ABŞ səfirliyində təsərrüfat işlərinə baxan Göyüşovu amerikalılar məhkəməyə veriblər. İddia edilir ki, o, ABŞ büdcəsinə 500 min manatdan çox ziyan vurubdur. Sən demə, Göyüşov həmişə qiymətləri ikiqat şişirdirmiş. 200 manata aldığı şeyi Sem dayıya 400 manata satırmış. İndi amerikalılar məcburdur mebelləri satsın. Bəlkə də Göyüşovun vurduğu ziyan Trampın Putini sülhə gətirmək planlarını da yarımçıq qoyubdur. Atalar demişkən, dama-dama göl olar. Manıslar var, uçan xalçasının tozu ilə 5 milyon manatlıq villalar əldə edib, indi də satır.

Özü də səhv eləmirəmsə, həmin villa Ramiz Mehdiyevin 8 milyonluq villasının yanındaymış. Eh, etibarsız dünyadır... Vaxt var idi hamı Ramiz müəllimlə qonşu, qohum olmağa çalışardı, indi gen gəzirlər. Yenə müdrik məsəllərə müraciət eləsək, gəmi batanda onu birinci manıslar tərk edirmiş.

Yük maşınları ilə qəzaların sayının qəribə şəkildə artması da ümumi yükümüzün ağırlaşmasına görədir. Hər kəs bu yükü darta bilmir.




# Türklər Alıcandan o tərəfə keçir - illər sonra ilk dəfə...

## Ermənistan, nəhayət, nicat yolunu tapmaqdadır; tarixi barışığa az qaldı...

**Türkiyə-Ermənistan münasibətlərində daha bir mühüm mərhələ başlayır. APA Türkiyənin NTV televiziya kanalına istinadən xəbər verir ki, Türkiyə ilə Ermənistan ilk dəfə heyətlərarası görüş üçün bir araya gəlir.**

Səfərin bu həftənin əvvəlində keçirilməsi planlaşdırılır. Diplomatik mənbələrdən əldə edilən məlumata görə, səfir Serdar Kılıçın rəhbərlik etdiyi heyətin Ermənistan tərəfinə Alican sərhəd-keçid məntəqəsindən keçərək getməsi gözlənilir.

İlk dəfə keçiriləcək heyətlərarası görüşdə Türkiyə-Ermənistan ikitərəfli münasibətlərinin normallaşdırılması üçün bəzi qərarların qəbul olunması və daha əvvəl qəbul edilmiş qərarların icraya qoyulması gündəmdə olacaq.

Keçmiş illərdə aparılmış beş ayrı görüşdə yük daşımaları və hava uçuşlarının başlanması, sərhədlərin açılması üçün texniki və infrastruktur işlərinin həyata keçirilməsi barədə qərarlar qəbul edilmişdi.

Diplomatik pasport daşıyan şəxslər üçün viza prosedurlarının sadələşdirilməsi ilə yanaşı, üçüncü ölkə vətəndaşlarının Türkiyə-Ermənistan sərhədindən keçməsinə icazə verilməsi məsələsində də razılıq əldə edilmişdi, lakin bu qərar hələ həyata keçirilməyib.

Səfərin ABŞ-Ermənistan və Azərbaycan arasında Zəngəzur dəhlizi ilə bağlı müqavilənin imzalanmasının ardından baş tutması da mühüm əhəmiyyət kəsb edir.

Ermənistan Xarici İşlər Nazirliyinin sözçüsü Ani Badalyan da yaxın günlərdə İrəvanda xüsusi nümayəndələrin görüş keçirəcəyini açıqlayıb.

Xatırladaq ki, iki ölkə arasında normallaşma prosesi 2022-ci ilin əvvəlində başlanıb. O dövrdə əldə olunan əsas razılaşmalardan biri 1 iyul 2022-ci ildə Vyanada imzalanan sənəd olub. Razılaşmaya görə, tərəflər qısa müddətdə quru sərhədini üçüncü ölkə vətəndaşları və diplomatik pasport sahibləri üçün açmalı idilər.

Lakin razılaşmadan iki ildən çox vaxt keçməsinə baxmayaraq, sərhəd hələ də bağlı qalır. Yeni danışıqlarda bu məsələnin gündəmin əsas mövzularından biri olacağı gözlənilir.

**Professor, iqtisadi və siyasi məsələlər üzrə şərhçi Fikrət Yusifov** "Yeni Müsavat"a bildirdi ki, vaxtilə Azərbaycan torpaqlarını işğal edərək, bu torpaqlarda Türkiyəyə qarşı bir dövlətcik yaradan Rusiya haradan biləydi ki, on illər keçəcək və onun Cənubi Qafqaz siyasəti bugünkü kimi iflasa uğrayacaqdır: "Osmanlı İmperiyası dönəmində də Türkiyədə yaşayan erməniləri hakimiyyətlə düşmən edənlərdən, erməniləlrə türkləri qarşı-qarşıya qoyanlardan biri və bəlkə də birincisi elə Rusiya olub. Sağlam olmayan əməllərin ömrü uzun olmur deyirlər. El dilində belə əməllərin üstünün qırx gündən sonra açılmasına eyham vurulsa da, siyasətdə bu qırx gün bəzən on illər uzunu davam edə bilir. Və indi Cənubi Qafqazda obrazlı desək Rusiya imperiyasının qırx günü tamamlanır. Ruslar özlərinə yer tapa bilmirlər. Onların üzünə bu qədər təsirli silləni bəlkə də heç kim vurmamışdı ki, bunu Ermənistan etdi. İndi ruslar deyir ki, on illər boyu Rusiyanın yedəyində gedən, onun bütün resurslarından "ata malı" kimi yararlanan Ermənistan birdən-birə "çörək yediyi qaba tüpürdü". Rusların ağlına belə gəlməzdi ki, bir gün Ermənistan hakimiyyətinin başında dayanan birisi durub deyəcək ki, Qarabağ Azərbaycandır! Bunu Rusiyada başda Vladimir Putin olmaqla heç bir rus həzm edə bilmədi. Cənubi Qafqazı caynaqda saxlamağın ən böyük aləti - Qarabağ məsələsi qapandı. Kremlin sözçü sürüsü Paşinyanın bu bəyanatından sonrakı dönəmdə zəncir çeynəməklə məşğuldur. Ancaq gecdir. O qatar artıq yola çıxıb və sürət yığmaqda davam edir. Ona Rusiyanın indiki bərbad hərbi, iqtisadi və siyasi durumunda çatmaq mümkün deyil. Ancaq ən azından indi Ermənistana hədə-qorxu gəlmək mümkündür ki, bunu da Rusiya rəsmiləri və sözçüləri durmadan edirlər. Bu çaxçax baş apardıqca Cənubi Qafqazda sülh və əmin-amanlıq qatarı yol tutub gedir. Ruslar artıq başa düşürlər ki, bölgədə siyasi dəngələr əsaslı şəkildə dəyişməkdədir və sonda onların bu regionu tamamilə tərk edib, rədd olub getməkdən başqa yolları qalmayacaqdır".

**İqtisadçı alim onu da bildirdi ki, Cənubi Qafqaz regionuna ABŞ və onun regionda ən yaxın tərəfdaşı, Azərbaycanla qardaş olan Türkiyə gəlir:** "Əslində Türkiyəmiz zatən buradadır. On illər uzunu rusların bu regionda qorxduqları indi başlarına gəlir. Rus imperiyası Ermənistanı zamanında Türkiyəyə və Qərbə qarşı bir alət kimi yaratmışdı. İndi Ermənistan Cənubi Qafqaza Türkiyənin və Qərbin gəlməsi üçün qucaq açır. Ruslardan fərqli olaraq Cənubu Qafqazda yeni oyunçuların bir marağı var - o da sağlam əməkdaşlıq mühitini qurub, orada hər bir dövlətin faydalanmasına şərait yaratmaq və bütövlükdə regionda sülhü təmin etməkdir. Bəs Rusiya 200 ildir bu regionda nə edirdi? Böyük rus insan hüquqlarının müdafiəçisi Valeriya Novodvorovskayanın Rusiya dövlətinə verdiyi tərifi bu yerdə xatırlamaq yerinə düşər. O deyirdi: "Rusiya müharibəsiz yaşaya bilməyən bir imperiyadır. Əgər düşməni yoxdursa, onu yaradır. Xarici təhlükələri yoxdursa, onları daxildə axtarmağa başlayır. Bu lənət əsrlərdir davam edir". Bu lənətin acılarını Rusiya ilə bu və ya digər formada əlaqədə olmuş bütün xalqlar çəkib və çəkməkdə davam edirlər. Ermənistan hakimiyyətinin Türkiyə ilə əlaqələri bərpa etmək qərarı və bu yolda atdığı cəsarətli addımlar Ermənistan tarixində onun bir dövlət kimi yaşaya bilməsi yolunda edilən ən doğru seçimdir. Nikol Paşinyan bu gerçəyi hakimiyyətə gəldiyi ilk gündən dərk edirdi. Sadəcə, o, bunu həmin an edə bilməzdi. Ona zaman lazım idi. Paşinyan yaxşı anlayır ki, Ermənistanın kiminsə əlində alət deyil, gerçək bir dövlət olması yalnız Türkiyə və Azərbaycanla barışdan və sağlam əlaqələrin qurulmasından keçə bilər. İndi bu istiqamətdə atılam addımlar Ermənistanın bir dövlət kimi mövcud olmasına, Cənubi Qafqazda isə bütövlükdə sülhə aparır. Bunun alternativi yoxdur. Son bir neçə ildə Rusiya Cənubi Qafqazda gedən və sülhə aparan pozitiv proseslərə nə qədər əngəl törətməyə çalışsa da bunu bacarmadı. Çünki artıq xalqlar ayılıb və baş verən bütün hadisələri obyektiv qiymətləndirə bilirlər. İndi heç kimi aldatmaq mümkün deyil".

❑ Cavanşir ABBASLI,
"Yeni Müsavat"

# “İlham Əliyevlə şəkil çəkdirmək üçün gələnlər...”- macar nazir kimləri deyir?

## Siyarto haqlıdır, Avropa liderləri uzun müddət Azərbaycan liderinə ən müxtəlif bəhanələrlə məsafəli davranıblar, indi isə...



**“15 il əvvəl Budapeşt Bakı ilə münasibətləri qarşılıqlı hörmət prinsipləri əsasında qurmağa başlayanda bəzi Avropa liderləri istehza ilə reaksiya verdilər. Bu gün həmin siyasətçilər Bakıya Azərbaycan prezidenti ilə əl sıxmaq və onunla şəkil çəkdirmək üçün gəlirlər”. Bunu Macarıstanın xarici işlər və ticarət naziri Peter Siyarto Puşkaş Arenada keçirilən Macarıstan-Azərbaycan Hökumətlərarası İqtisadi Komitəsinin 11-ci iclasının yekunlarına dair mətbuat konfransında deyib.**

“Mən son 10 ildə Prezident Əliyevdən o qədər çox şey öyrənmişəm ki, olduqca mürəkkəb mühitdə ölkəyə necə yaxşı rəhbərlik etmək lazımdır. Əfsus ki, onun bütün bildiklərini öyrənə bilmədim. Çünki biz radikal tərəfə meylliyik və o, daha mülayim baxışları ilə tanınan siyasi xadimdir. Mən ondan beynəlxalq arenada mülayim şəkildə necə daha da uğurlu olmağı öyrənməliyəm”. Bunu isə 2023-cü ildə Bakıda səfərdə olan macar baş nazir Viktor Orban deyib.

Serbiya Prezidenti Aleksandr Vuçiçin İlham Əliyev haqda dediklərini yada salmaqda fayda var: “Mən onunla dəfələrlə danışmışam. O, Avropada çox məşhurlaşıb. Bu arada bilmirəm o nə edib, amma etiraf edim ki, bunun sirrini mən də bilmək istərdim”.

Aydındır ki, Rusiyanın Ukraynadakı işğalçı müharibəsi Şərqi Avropa ölkələrini enerjidaşıyıcıları, xüsusilə təbii qazla sınağa çəkdi. Siyasi liderlər Avropa ölkələrinin alternativ enerji mənbələri axtarışını gücləndirirdi. Bununla da Avropa ölkələrinin diqqəti daha cəlbedici və hazır layihə olan, İlham Əliyevin ciddi səyləri nəticəsində gerçəkləşən TAP, TANAP layihələrinə yönəldi.

Siyarto, əlbəttə, haqlıdır, çünki Avropa liderləri uzun müddət ərzində Azərbaycan liderinə ən müxtəlif bəhanələrlə məsafəli davranıblar. Qarabağ zəfərindən sonra Azərbaycan dövlətinin və onun rəhbərinin artan nüfuzu, doğru atdığı addımlar və ölkəsinin maraqlarını ən yüksək səviyyədə qoruyub təmsil etməsi Azərbaycanın həm bölgədə, həm də dünyada dəyərli bir dövlət olduğunu sübut etdi.

**Demokratik Maarifçilik Partiyasının sədri, deputat Elşən Musayev “Yeni Müsavat”a açıqlamasında Azərbaycan Prezidenti haqqında deyilən bu fikirlərin əslində təsadüfi olmadığını söylədi**: “Öncə ondan başlayım ki, cənab Prezident hər zaman böyük masştablı işlər görüb və yürütdüyü mükəmməl, müdrik, ləyaqətli siyasətlə bir çoxlarına örnək, nümunə olub. Sadəcə, məsələ burasındadır, əvvəllər müəyyən güclər, qüvvələr, liderlər bunu etiraf etmək istəmirdilər. İndi isə artıq elə bir dönəm gəlib ki, hətta bizi sevməyən güclər, zaman-zaman Azərbaycandan kənar gəzən dövlətlər, bu dövlətlərin rəhbərləri belə dilə gəlib deyirlər ki, İlham Əliyev fenomenal bir rəhbərdir, dünya miqyaslı siyasətçidir və ondan nələrisə öyrənmək, ona oxşamaq, onun kimi lider olmaq lazımdır. İlham Əliyevin yürütdüyü müdrik siyasətin müsbət təsirləri gerçəkdən də bu gün təkcə Azərbaycan və bölgə miqyasında deyil, daha geniş sferada hiss olunur. Serbiya prezidentinin də, macar nazir(lər)in də, digərlərinin də ölkə rəhbərimiz haqda söylədiyi fikirlər əslində çox təbii, məntiqli, gözlənilən, haqq edilən fikirlərdir.

Məncə, hazırda İlham Əliyev elə bir məqamdadır, elə bir nüfuza sahibdir ki, onun yanında olmaq, onunla bərabər sırada durmaq, dayanmaq ən böyük dünya liderlərinə və siyasətçilərinə belə yalnız və yalnız hörmət, ehtiram, şərəf gətirər".

**YAP-çı deputat Azər Badamov** bildirdi ki, Prezident İlham Əliyev Avropanın Azərbaycana baxışlarını dəyişdirən və çox vacib tərəfdaş olduğunu etiraf etməsinə məcbur edən böyük liderdir: “Prezident İlham Əliyev ümummilli lider Heydər Əliyev məktəbinin yetirməsidir”. **Deputat dedi ki, Prezident İlham Əliyev TAP layihəsini beynəlxalq müzakirəyə təqdim edəndə investisiya yatırmaqdan çəkinirdilər:** “Amma dövlət başçımızın qətiyyəti və siyasi iradəsi ilə TAP ərsəyə gələndə Avropada reallıqlar dəyişdi və bu gün layihəyə şübhə ilə yanaşan Avropa ölkələri Azərbaycan qazını almaq üçün növbəyə düzülüblər. Budur uzaqgörən siyasət. 2020-ci ilin sentyabrına qədər dövlət başçımız beynəlxalq ictimaiyyəti Azərbaycan torpaqlarının işğal altında olması barədə daim məlumatlandırır, sülh yolu ilə azad olunmazsa, hərb yolu ilə bunu edəcəyimizi bildirirdi. Yəni biz 44 günlük Vətən müharibəsinə başlayanda beynəlxalq ictimaiyyət öz ərazilərini azad etməyin Azərbaycanın haqq işi olduğunu tanıyırdı. Məhz buna görə əlavə müdaxilələrin edilməsi üçün bir yer qalmadı. Eynilə biz 2023-cü ildə lokal xarakterli antiterror tədbirləri keçirməklə də bütün ərazilərimizdə suverenliyimizi bərpa etdik. Bu gün artıq bütün dünya Azərbaycanın gördüyü haqq işini tanıyır və yaratdığımız reallıqlar qəbul olunub. Azərbaycan dünyanın ən güclü ölkələri olan ABŞ və Çinlə strateji tərəfdaşlıq əlaqələri qurub. Təbii ki, bu uğurların yeganə müəllifi Prezident İlham Əliyevdir. Macarıstan lideri Viktor Orban və onun komandası Prezident İlham Əliyevin yüksək səviyyəli lider olduğunu qəbul edərək dostluq münasibətləri quran Avropa ölkəsidir. Bu gün isə vaxtilə bizdən uzaq gəzməyə üstünlük verən Avropa ölkələrinin rəhbərləri Prezident İlham Əliyevlə görüşmək, əməkdaşlığı müzakirə etmək üçün növbəyə dayanır və liderliyin xüsusiyyətlərini öyrənməyə çalışırlar”.

Siyasi təhlilçi Sona Əliyeva isə qeyd etdi ki, bu gün İlham Əliyev nəinki Avropada, hətta bütün dünyada “odla su arasındakı ölkənin” sülh fenomeni kimi tanınır: “ Azərbaycan Prezidenti 2008-ci il Gürcüstan-Rusiya savaşında çox ağıllı yol tutaraq Azərbaycanı gələcək təhlükələrdən sığortalaya bildi. İranla gərginlikdən də alnıaçıq çıxdı. Hətta 44 günlük savaşdan sonrakı proseslərdə də riskləri uğurla idarə etdi. Bütün bunlar dünyanın gözü qarşısında baş verir. Prezident Əliyev Azərbaycanın xarici siyasətini möhkəm təməllər üzərində formalaşdırıb. Rusiya qazından və neftindən asılı olan Avropa indi Azərbaycana gözlərini dikib. Vaxtilə TANAP layihəsinə ağız büzən Avropa dövlətləri şimal və cənub dəhlizlərinin iflic duruma düşməsindən sonra Azərbaycanın ətəyindən möhkəm yapışıblar. Hətta bir sıra Qərb liderləri İlham Əliyevlə görüşmək, foto çəkdirmək üçün növbəyə düzülüblər. İndi Moldovadan Balkanlara, Prineydən Apeninə qədər Qərb dövlətləri Azərbaycanın təbii resurslarına ümid bəsləməkdədirlər. Onlar Rusiyanın "mavi dəyənəyindən" qurtulmaq üçün Azərbaycana alternativi olmayan nəfəslik kimi baxırlar. Hazırda Avropa Çindən Britaniyaya uzanan “Bir kəmər, bir yol” layihəsinə böyük ümidlər bəsləyir. Həmin layihənin də əsas geostrareji mərkəzlərindən biri məhz Azərbaycandır. Üstəlik, Mərkəzi Asiya ölkələrinin təbii resurslarının Azərbaycan üzərindən Avropa bazarlarına çıxması məsələsi ön plandadır. Bu baxımdan da Qərb liderləri Azərbaycan Prezidentinin bu məsələni də ustalıqla həll edəcəyinə inanırlar".

❑ **Cavanşir ABBASLI,**
**“Yeni Müsavat”**



## Amerika nümayəndələri Bakıda

**Azərbaycanın xarici işlər naziri Ceyhun Bayramov ölkəmizdə səfərdə olan ABŞ-nin Orta dəhliz üzrə Sertifikatlaşdırılmış Ticarət Missiyasının nümayəndələrini qəbul edib.**

XİN-dən verilən məlumata görə, görüş zamanı, cari ilin 8 avqust tarixində Vaşinqtonda Azərbaycan və ABŞ prezidentlərinin və Ermənistanın baş nazirinin iştirakı ilə aparılmış müzakirələr və imzalanmış sənədlərin tarixi əhəmiyyəti qeyd olunub, bu razılaşmaların regional sülh və tərəqqiyə töhfəsi qeyd edilməklə yanaşı, Azərbaycan-ABŞ əlaqələri üçün böyük perspektivlər açdığı vurğulanıb.

Bu xüsusda Azərbaycanın qərb bölgələri ilə ölkəmizin Naxçıvan Muxtar Respublikası arasında maneəsiz gediş-gəlişi təmin edəcək layihənin əhəmiyyəti diqqətə çatdırılıb.

Azərbaycanın son onilliklər ərzində Orta dəhlizin canlandırılması və işlək vəziyyətə gətirilməsi üçün göstərdiyi səylərdən bəhs olunub, bu səylərin Bakı-Tiflis-Qars dəmir yolu, Bakı Beynəlxalq Dəniz Ticarət Limanı, Ələt Azad İqtisadi Zonası kimi konkret layihələrlə reallaşdırıldığı diqqətə çatdırılıb.

Orta dəhliz üzrə Xəzər dənizinin şərqindəki tərəfdaş dövlətlər, dost və qardaş Mərkəzi Asiya ölkələri ilə həmçinin Azərbaycanın strateji əlaqələrə malik olduğu məmnunluqla xatırlanıb.

Görüş zamanı Azərbaycanın uzun illər boyu Avropanın enerji təhlükəsizliyində əhəmiyyətli rol oynadığı bildirilib, hazırda ölkəmizin təbii qazı ilə təchiz olunan ölkələrin sayının 14-ə çatdığı qeyd olunub.

Ölkəmizin hazırda nəhəng bərpaolunan enerji resurslarının inkişafı və Avropaya ötürülməsi üzrə tərəfdaş ölkələrlə genişmiqyaslı fəaliyyətlər həyata keçirdiyi qeyd olunub, bu məqsədlə Qara Dəniz Enerji sualtı kabelinin inşası kimi konkret layihələrin əhəmiyyəti diqqətə çatdırılıb.

## Rusiya 3+3 formatının bərpasını istəyir

**Rusiya tərəfi Cənubi Qafqaz dövlətləri ilə onların üç qonşusu, o cümlədən Rusiya arasında 3+3 formatında qarşılıqlı fəaliyyətin tezliklə bərpasına ümid edir.**

Bunu Rusiyanın xarici işlər naziri Sergey Lavrov MDBMİ-nin müəllim və tələbələri qarşısında çıxışı zamanı deyib.

“Biz həqiqətən ümid edirik ki, Türkiyə və Azərbaycanın o zaman irəli sürdüyü təşəbbüs, yəni 3+3 platformasının yaradılması təşəbbüsü çərçivəsində iş bərpa olunacaq. Cənubi Qafqazın üç ölkəsi - Ermənistan, Azərbaycan, Gürcüstan və onların üç böyük qonşusu - İran, Türkiyə, Rusiya... İndi hesab edirik ki, bu formatı bərpa etməyin vaxtı çoxdan çatıb", - rusiyalı nazir bildirib.

Onun sözlərinə görə, İran bu prosesi dəstəkləyir və platformanın təşəbbüskarları Türkiyə və Azərbaycan olub. Bu kontekstdə Lavrov tez görüşə ümid etdiyini bildirib.

YENİ MÜSAVAT
N 160 (8770) 9 sentyabr 2025

## İslam İnkişaf Bankının toplantısı Bakıda olacaq

**İslam İnkişaf Bankı (IsDB) Qrupunun 2026-cı il üzrə illik toplantılarının Bakı şəhərində keçirilməsi ilə əlaqədar Təşkilat Komitəsi yaradılıb. Prezident İlham Əliyev bununla bağlı sərəncam imzalayıb.**

Sərəncama əsasən, 2026-cı il iyunun 16-19-da IsDB Qrupunun gələn il üzrə illik toplantılarının Bakıda keçirilməsi ilə əlaqədar aşağıdakı tərkibdə Təşkilat Komitəsi yaradılıb:

Təşkilat Komitəsinin sədri
Samir Şərifov - baş nazirin müavini
Təşkilat Komitəsi sədrinin müavini
Mikayıl Cabbarov - iqtisadiyyat naziri
Təşkilat Komitəsinin üzvləri:
Ceyhun Bayramov - Azərbaycan Respublikasının Xarici işlər naziri
Sahil Babayev - Azərbaycan Respublikasının Maliyyə naziri
Adil Kərimli - Azərbaycan Respublikasının Mədəniyyət naziri
Kəmaləddin Heydərov - Azərbaycan Respublikasının Fövqəladə hallar naziri
Vilayət Eyvazov - Azərbaycan Respublikasının Daxili işlər naziri
Rəşad Nəbiyev - Azərbaycan Respublikasının Rəqəmsal inkişaf və nəqliyyat naziri
Teymur Musayev - Azərbaycan Respublikasının Səhiyyə naziri
Şahin Bağırov - Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri
Elçin Quliyev - Azərbaycan Respublikası Dövlət Sərhəd Xidmətinin rəisi
Vüsal Hüseynov - Azərbaycan Respublikası Dövlət Miqrasiya Xidmətinin rəisi
Fuad Nağıyev - Azərbaycan Respublikası Dövlət Turizm Agentliyinin sədri
Taleh Kazımov - Azərbaycan Respublikası Mərkəzi Bankının sədri
Samir Rzayev - “Azərbaycan Hava Yolları” Qapalı Səhmdar Cəmiyyətinin prezidenti
Eldar Əzizov - Bakı Şəhər İcra Hakimiyyətinin başçısı.

Nazirlər Kabineti İslam İnkişaf Bankı Qrupunun 2026-cı il üzrə illik toplantılarının keçirilməsi ilə əlaqədar xərclərin maliyyələşdirilməsi üçün 2026-cı ilin dövlət büdcəsi layihəsində müvafiq vəsaitin nəzərdə tutulmasını təmin etsin və digər zəruri məsələlərin həlli üçün tədbirlər görsün.

# “Təzəpir”də ehsan qiymətlərinə etiraz - Şeyxə çağırış

## Ekspert deyir ki, maarifləndirmə yolu ilə bu problemi aradan qaldırmaq mümkün olmursa, o zaman...

**"Təzəpir" məscidində ehsan qiymətləri Bakıdakı mərasim evlərindəkindən bahadır. Sual verirəm: niyə?" Bu fikirləri Beynəlxalq Avrasiya Mətbuat Fondunun (BAMF) sədri Umud Mirzəyev Azərbaycan Milli Qeyri-Hökumət Təşkilatları Forumunda baş tutan toy və yas mərasimlərində israfçılıqdan çıxış yolunun tapılması üçün ictimai diskussiyada deyib (“Report”). Onun sözlərinə görə, Azərbaycanın bəzi bölgələrində, xüsusilə Naxçıvan və Qarabağda bu kimi israf halları yox dərəcəsindədir. “Ən böyük problem Bakı şəhərindədir. Bakıda son beş ildə mərasim evlərinin sayına baxın, sürətlə artır. Hesab edirəm ki, Dini Komitə bununla bağlı daha kəskin çıxışlar etməlidir”.**

Mirzə Ələkbər Sabir Fondunun təsisçisi və sədri Sevda Tahirli isə toylardakı israfçılıq halları ilə boşanmaların artması arasındakı əlaqəyə diqqət çəkib: “Çünki dəbdəbəli toylar, nə bilim, "love story"lər artıq xərcə yol açır. Sonra ailələr borcun-xərcin altından çıxa bilmir, nəticədə ailələrdə problemlər yaranır".

Qeyd edək ki, son vaxtlar rayonlarda ehsan verilməsi sadələşdirilir. Amma Bakıda mərasim zallarında israfçılıq davam edir. Şəhərin ən böyük mərasim zalları isə “Təzəpir” məscidində yerləşir. Burada restoranlarda olduğu kimi menyu, standart qiymətlər var. Amma israfçılıq İslamda bəyənilmir. Ona görə də Qafqaz Müsəlmanları İdarəsinin sədri Allahşükür Paşazadə tövsiyə xarakterli bəyanatla çıxış edə bilər. Şeyx əhaliyə də, mərasim evlərinə də çağırış edərək bu dəbdəbədən, lüzumsuz xərclərdən çəkinməyi məsləhət görə bilər. A.Paşazadənin İslamdan sitat gətirərək müsəlman əhalisinə yol göstərməsi ictimai rəyə təsir edəcək.

Hazırda QMİ-nin inzibati idarəsinin də yerləşdiyi “Təzəpir” məscid kompleksində təklif olunan xidmət və qiymətlər isə göründüyü kimi, narazılıq doğurub. “Təzəpir” məscid kompleksində ümumilikdə 6 mərasim zalı var. Zallardan hər birində eyni vaxtda 250 nəfərə xidmət göstərilə bilər. Burada 300 nəfərlik zal da var.

**Araşdırmaçı jurnalist, dini mövzular üzrə mütəxəssis Rəsul Mirhəşimli mövzu ilə bağlı fikirlərini belə ifadə edib:** “Rayonlarda son zamanlar sadə və israfdan uzaq yas məclislərinin təşviqi müsbət qarşılanırsa da, şəhərlərdə, xüsusilə də paytaxtda israfçılıq və dəbdəbə hələ də aktual problem olaraq qalır. "Təzəpir" məscid kompleksi yalnız dini mərkəz deyil, həm də ölkənin ən iri yas mərasimlərinin keçirildiyi məkanlardan biridir. Buradakı mərasim zallarında xidmətlər restoran standartlarına uyğun təqdim olunur. Lakin burada verilən ehsan süfrələri və təmtəraqlı məclislər İslamın sadəlik və israfdan uzaq durmaq çağırışlarına uyğun gəlmir. Məhz buna görə də ictimaiyyət arasında narazılıq artır. Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin bu məsələ ilə bağlı ictimaiyyətə tövsiyə xarakterli çıxışı mühüm addım ola bilər. İslam dini israfı açıq şəkildə qadağan edir. Bu ölkədə çoxları bilir ki, paytaxtda günü-gündən çoxalan mərasim evləri isə QMİ-nin nəzarətində deyil. Bu problemin yaranmasında həmin mərasim salonlarının tikintisinə icazə verən qurumlar, bu məkanlarda israfçılığa meydan yaradılmasında əsas rol oynayan obyekt sahibləri məsuliyyət daşıyır. Bir çox hallarda isə israfçılığın böyüməsinə vətəndaşlar özləri də rəvac verir. Elə bu yaxınlarda rayonlarımızın birində yemək verilməyən, yalnız çay süfrəsi təşkil edilən yas mərasiminə əhalinin getmədiyi ilə bağlı yayılan videogörüntülər bunun bariz nümunəsidir".



**Rəsul Mirhəşimli qeyd edir ki, dəbdəbəli mərasim evləri, bahalı mərmər məzar daşları, yüksək qiymətə qəbir yerləri bir yandan insanları ağır xərclərə salır, digər yandan da dini mahiyyətin itirilməsinə gətirib çıxarır:** “İslam isə sadəlik, təmkin və ehtiyac sahibinə dəstək üzərində qurulub. Yas mərasimində xərclənəcək külli miqdarda vəsaitin bir hissəsi mərhumun savabı üçün sədəqə olaraq verilə bilərdi. Bu, həm dinə, həm də cəmiyyətə daha çox xeyir gətirərdi. Burada təkcə dini rəhbərlərin çağırışları deyil, dövlət qurumlarının da üzərinə vəzifələr düşür. Dini Qurumlarla İş üzrə Dövlət Komitəsi, Qafqaz Müsəlmanları İdarəsi ilə birgə müntəzəm şəkildə maarifləndirici tədbirlər təşkil edə bilər. Bundan əlavə, yas mərasimlərinin ticarət obyektinə çevrilməsinin qarşısını alan qanunlar və normativ aktlar qəbul edilə bilər. Yas mərasimlərinin sadəliyini təmin etmək üçün məscidlərin nəzarətində olan mərasim salonlarında sadə yas məclisləri üçün pulsuz və ya minimal ödənişli məkanlar ayrılmalıdır. Eyni zamanda tanınmış ziyalılar, ölkənin nüfuzlu insanları da bu çağırışa qoşularsa, ictimai rəyə təsiri daha güclü olar. Bu problem dinin deyil, yerli icra hakimiyyətlərinin və bələdiyyələrin səlahiyyətindədir. Lakin din xadimləri bu sahədə də səsini ucalda bilər. Qəbir yerləri pullu ticarət obyektinə çevrilməməli, dövlət bu sahəyə ciddi nəzarət mexanizmi tətbiq etməlidir. Əks halda, bu vəziyyət sosial bərabərsizlikləri daha da dərinləşdirəcək”.

**Dini mövzular üzrə mütəxəssis, araşdırmaçı jurnalist Kənan Rövşənoğlu da mövzu ilə bağlı “Yeni Müsavat”a fikrini bölüşüb:** “Bəzi bölgələrdə artıq 20 ildən çoxdur ki, yas məclislərində ehsan verilmir. Məsələn, Şamaxı, Qazaxda artıq 20 ildir ehsan verilmir. Bir müddət öncə, 2014-cü ildə hökumət bu mərasimlərin qarşısını inzibati yolla almağa çalışdı. Lakin bunun mümkün olmadığını görüb geri çəkildi. Hazırda Qafqaz Müsəlmanları İdarəsinin (QMİ) bu sahədə elə bir səlahiyyəti yoxdur. QMİ, sadəcə, Ramazan ayının başlanğıcı və sonu, eləcə də Məhərrəm ayı ilə bağlı fətvalar verir. Bütün səlahiyyətlər isə Dini Qurumlarla İş üzrə Dövlət Komitəsindədir. Komitə bu istiqamətdə tapşırıq verə bilər. Dövlət isə bu məsələni yalnız inzibati yolla həll edə bilər. Maarifləndirmə yolu ilə bu problemi aradan qaldırmaq mümkün olmur. Göründüyü kimi, bəzi rayonlarda da məsələ inzibati qaydada həll olunur - tapşırıq verilir və nəticədə insanlar dəbdəbəli ehsan mərasimlərindən imtina edirlər”.

**Mütəxəssis vurğulayır ki, toy mərasimləri fərqli xarakter daşıyır, burada kifayət qədər lazımsız adətlər mövcuddur:** “Fikrimcə, yas mərasimlərinin təşkili formalarında da dəyişikliklər olmalıdır. Müəyyən günlərdə mərasim zalına toplaşmağa ehtiyac yoxdur. Türkiyə və digər müsəlman ölkələrində bu məsələ fərqli formada həyata keçirilir - məsciddə bir gün təyin olunur, mərhumun ailə üzvlərinə başsağlığı verilir, dualar oxunur. Və ya insanlar mərhumun evinə gedirlər. İslamda müsəlmanlara tövsiyə olunur ki, dəfn mərasimində iştirak etsinlər, ailə üzvlərinin kədərinə şərik olsunlar, onları tək qoymasınlar. Lakin 3 və ya 7 gün sonra 500 nəfərin hansısa zala yığışmasının dini baxımdan heç bir mənası yoxdur. Şeyxülislam da bildirir ki, bu, sovet dövründə formalaşmış bir adətdir. Həmin dövrdə dinin təbliği qadağan olunduğu üçün yas mərasimləri həm də dini təbliğat vasitəsinə çevrilmişdi. Molla çıxış edirdi. Hazırda isə mollalar belə çıxış etmir. İnsanlar dəbdəbəli xeyir-şər evlərində oturur, yemək yeyib gedirlər. Bəzi yerlərdə isə heç Quran da oxunmur. Bu adətlərdə dəyişiklik olmalıdır. Bəs bu dəyişikliyi kim etməlidir? Qafqaz Müsəlmanları İdarəsinin sədri Şeyxülislam Allahşükür Paşazadənin hazırda, sadəcə, adı var, inzibati baxımdan onun ruhanilərə təsiri yoxdur, onlar Dini Komitəyə tabedir. Dini Komitə din xadimlərinə tapşırıq verə bilər ki, bu adətlərin dini əsaslara uyğun olmadığını insanlara izah etsinlər. Ölüsü üçün yemək vermək və ya 10-50 min manata başdaşı qoydurmaq dini baxımdan heç bir əhəmiyyət kəsb etmir. Onlar bunu deməlidirlər ki, İslamda belə bir göstəriş yoxdur”.

❑ **Afaq MİRAYİQ,**
**“Yeni Müsavat”**

YENİ MÜSAVAT
N 160 (8770) 9 sentyabr 2025

Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyi

Vətəndaş cəmiyyəti, hüquqi dövlət quruculuğu

# 23 saat 43 dəqiqə - suverenliyimizin tam bərpasının ikinci ili...

## 2023-cü ilin 19-20 sentyabr tarixlərində keçirilmiş antiterror əməliyyatı sayəsində bu gün Azərbaycan bayrağı bütün ərazilərimizdə əzəmətlə dalğalanmaqdadır

**2023-cü ilin 19-20 sentyabr tarixlərində Azərbaycan Ordusunun keçirdiyi antiterror tədbirləri nəticəsində suverenliyimiz tam bərpa olundu. Qısamüddətli lokal xarakterli antiterror əməliyyatları nəticəsində düşmənin silah və texnikalarının böyük hissəsi sıradan çıxarıldı.**




O zaman Azərbaycan ərazisində qanunsuz olaraq Ermənistan ordusuna məxsus yüzdən çox tank və zirehli nəqliyyat vasitələri, zirehli texnika, iki yüzdən çox top və artilleriya qurğuları, hava hücumuna qarşı qurğular yerləşdirilmişdi. Cəmi 23 saat 43 dəqiqə ərzində erməni separatçıları ağ bayraq qaldırmağa məcbur oldular. Qarabağın erməni sakinlərinin nümayəndələrinin Rusiya sülhməramlı kontingenti vasitəsilə müraciətini nəzərə alaraq, tam atəşkəs haqqında razılaşma əldə olundu və lokal xarakterli antiterror tədbirləri dayandırıldı. Ağır relyef, düşmən tərəfindən uzun illər böyük mühəndislik işləri nəticəsində istehkamların mövcudluğu şəraitində, düşmən mövqelərinin təpələrdə, əlverişli yerlərdə yerləşdirilməsinə baxmayaraq hərbçilərimiz qəhrəmanlıq, peşəkarlıq göstərdilər və qısa müddət ərzində bütün istiqamətlər üzrə əhəmiyyətli dərəcədə hərbi uğurlar əldə etdilər.

Cəmi 23 saat davam etmiş və sentyabrın 20-də başa çatmış əməliyyat nəticəsində rəşadətli Azərbaycan Ordusu qarşısına qoyulmuş bütün vəzifələri yüksək peşəkarlıqla yerinə yetirdi. Beləliklə, növbəti parlaq Qələbə nəticəsində Azərbaycan Respublikasının suverenliyi tam bərpa edildi. Azərbaycan xalqının həyatında müstəsna əhəmiyyət kəsb edən şanlı Zəfər sayəsində bayrağımız suverenliyimizin bərqərar olduğu bütün ərazilərdə əzəmətlə dalğalanmaqdadır.

Heç kimə sirr deyildi ki, Qarabağın işğalı və bölgədə 30 ildən artıq xunta rejiminin varlığı həmin ərazilərdə hüquqi dövlət quruculuğuna əngəl olub. Xankəndi və digər ərazilərdə mövcud olmuş qeyri-qanuni idarəçilik səbəbindən o torpaqlarda Azərbaycan qanunları işləməyib.

Yəni bütün atributlar, orqanlar hamısı qondarma idi, hətta Ermənistan belə onun müstəqilliyini tanımırdı. Bununla belə, antiterror tədbirlərinə qədər bölgədə saxta erməni polisindən tutmuş pul vahidinə qədər onlara aid olub, Azərbaycanın bu ərazilərində nə manatımız işləyib, nə qanunlarımız, nə seçkilərimiz keçirilib. İki ildir ki, Xankəndi, Xocavənd, Xocalı, Ağdərə, Əsgəran və digər ərazilərimizdə hüquqi idarəçilik bərqərar olub. Ona görə də hüquqi dövlət quruculuğu prosesi antiterror tədbirlərindən sonra bu ərazilərə də çatıb.

Bundan əlavə, İqtisadi Əməkdaşlıq Təşkilatının 17-ci Zirvə toplantısının Xankəndidə keçirilməsi uzun illər separatizm yuvasına çevrilmiş mühüm hadisə idi. İndiyə qədər Xankəndidə beynəlxalq konfranslar keçirilməmişdi.

Qeyd edək ki, hüquqi dövlət quruculuğunun həyata keçirilməsi, vətəndaş cəmiyyətinin qurulması məhz 1991-ci il 18 oktyabr tarixində qəbul edilən "Azərbaycan Respublikasının Dövlət Müstəqilliyi Haqqında Konstitusiya Aktı"nda öz əksini artıq tapmışdı. İndi isə işğaldan azad edilmiş ərazilərdə dövlət strukturları, o cümlədən də hüquqi təsisatlar ləngimədən formalaşdırılır. Əlbəttə ki, burada əsas məqsəd işğaldan azad edilmiş ərazilərdə hüquqi dövlət prinsiplərinə əməl olunması üçün müvafiq strukturların qısa zamanda fəaliyyətə başlamasıdır. Yurdundan-yuvasından didərgin düşmüş soydaşlarımız və ümumiyyətlə, işğaldan azad edilmiş ərazilərə istər səfər edən, istərsə də o torpaqlarda məskunlaşmaq, yaxud sahibkarlıqla məşğul olmaq, iş yerlərinin açılmasında iştirak etmək, xidmət sektorunu canlandırmaq istəyində olanlar ilk növbədə hüquqi təsisatlarla qarşılaşmalıdır. İnsanlardan əvvəl bu ərazilərə ilk növbədə qanun ayaq açmalıdır. Təbii ki, qanunun aliliyinin təmin olunduğu yerdə rifah və rahat yaşayış da olacaq.

İşğaldan azad edilmiş ərazilərdə bütün dövlət strukturları, ictimai birliklər, vətəndaş cəmiyyəti institutları olacaq. Bu istiqamətdə ilk görülən işlərdən biri kimi məhz hüquqi təsisatların formalaşdırılması Azərbaycan dövlətinin qanunun aliliyini üstün tutduğunu göstərir. Azərbaycan Ordusu torpaqlarımızı işğalçılardan təmizlədiyi, ərazi bütövlüyümü təmin etdiyi günlərdə Azərbaycan Prezidenti İlham Əliyev "Azərbaycan Respublikasının işğaldan azad olunmuş ərazilərində müvəqqəti xüsusi idarəetmənin təşkili haqqında" fərman imzalayıb. O deməkdir ki, ərazilər işğaldan azad edildikcə orada artıq hüquqi təsisatlar formalaşdırıldı.

Baxmayaraq ki, sonrakı dövrdə Azərbaycan ittihamlara məruz qaldı. Müxtəlif beynəlxalq təsisatlar, bəzi Avropa ölkələrinin parlamentləri qətnamələr qəbul etdilər ki, guya Qarabağ ermənilərinin hüquqları pozulub. Lakin Azərbaycan onlara hüquqi dövlətdə yaşamağı təklif etmişdi. Onlar antiterror tədbirlərinə qədər legitimliyi olmayan uydurma "artsax respublikası"nın əski parçası olan "pasportu"nu daşıyırdı. Azərbaycan Ordusu bölgəyə qanuni idarəçilik gətirdi və dinc ermənilərə də vətəndaşımız olmaq çağırışı edildi. Sadəcə, qalmaq istəmədilər və regionu tərk etdilər. Həmin anti-Azərbaycan mərkəzlər isə əsl öz ölkələrində belə bir absurd reallığa dözə bilməzdilər - ölkənin bir hissəsində tamamilə başqa "qanun"lar işləsin.

**Siyasi ekspert Ramiyə Məmmədovanın sözlərinə görə, Azərbaycan beynəlxalq hüquqa və qanunvericiliyə uyğun addımlar atıb:** "Ona görə də heç bir dövlət açıq etiraz edə bilmədi. Fransa, Kanada kimi ölkələr, ABŞ Konqresində bəzi qüvvələr cəfəng bəyanatlar səsləndirdilər, ondan sonra uzağa gedən nəticələr olmadı. Çünki Azərbaycan digər sivil ölkələrin etdiyini həyata keçirmişdi. Məgər Fransada, yaxud Niderlandda qanunsuz silahlı birləşmə yaratmaq, özünün prezidentini, parlamentini seçmək olarmı? Hər bir dövlətin öz qanunları var, suverenliyi toxunulmazdır. Azərbaycanın bir hissəsində isə hüquqi dövlətçilik olmayıb və ordumuz bu problemə son qoyub. Bundan sonra Azərbaycan qanunları, dövlət qurumları Xankəndidə və digər şəhərlərimizdə əbədi işləyəcək. Həmçinin məskunlaşma artdıqca ictimai-siyasi fəaliyyət də olacaq. Yəni siyasi partiyaların, QHT-lərin yerli təşkilatları açıla bilər. Necə ki, digər rayonlarımızda da var".

Ekspert hesab edir ki, hüquqi dövlət quruculuğu istiqamətində növbəti addımların atılması zəruridir. Onun fikrincə, indi Azərbaycanın hər bir yerində öz qanunları işləyir, növbə anklav kəndlərimizə də çatacaq. R.Məmmədova əlavə edib ki, bu məsələlərdə Ermənistana güzəşt olmamalıdır.

**Azərbaycan Respublikasının Medianın İnkişafı Agentliyinin maliyyəsi əsasında nəşr olunur. Yazını hazırladı: Emil SALAMOĞLU**

# Dünyanın ən təhlükəli ölkələri

## Rusiyanın 2025-ci ildə dünyanın ən təhlükəli ölkəsi elan olunması heç də təsadüfi deyil

**2025-ci ilin ən son məlumatlarına görə, dünya üzrə təhlükəsizlik göstəriciləri ciddi şəkildə dəyişib.**

"Qafqazinfo" xəbər verir ki, "Global Peace Index" və digər beynəlxalq hesabatlara əsaslanan siyahılar bir daha təsdiqləyir ki, silahlı münaqişələr, siyasi qeyri-sabitlik və humanitar böhran bir çox ölkəni yaşamaq və səyahət üçün təhlükəli məkana çevirib.

**Rusiya**

Rusiyanın 2025-ci ildə dünyanın ən təhlükəli ölkəsi elan olunması heç də təsadüfi deyil. Ukrayna ilə müharibənin uzanması, daxildə siyasi repressiyalar və geniş militarizasiya ölkəni həm vətəndaşlar, həm də əcnəbilər üçün riskli məkana çevirib. İctimai asayişdəki pozuntular, terror təhlükəsi və eynəlxalq təcrid vəziyyəti daha da gərginləşdirir.

**Ukrayna**

Siyahının ikinci pilləsində yerləşən Ukrayna hər gün yeni dağıntılar və humanitar fəcilərlə üz-üzədir. Silahların geniş yayılması, yüksək cinayət göstəriciləri və şəhərlərin böyük hissəsinin dağıdılması ölkəni dünyanın ən riskli bölgələrindən birinə çevirib. Müharibə yalnız iqtisadiyyatı deyil, gündəlik həyatın bütün sahələrini iflic edib.

**Sudan**

Afrikanın ən böyük böhran nöqtələrindən biri olan Sudan vətəndaş müharibəsi, hakimiyyət boşluğu və silahlı qruplaşmaların toqquşmaları səbəbindən siyahının ilk üçlüyündədir. Yarım milyondan çox insan ölkəni tərk etməyə məcbur olub, milyonlarla insan isə aclıq və xəstəliklərlə üz-üzədir. Humanitar yardım çatdırmaq belə çətinləşib.

**Konqo**

Konqo Demokratik Respublikası (KDR) uzun illərdir silahlı qrupların və separatçıların təsiri altındadır. Ölkənin şərq bölgələrində mütəmadi hücumlar, qaçqın axını və iqtisadi çətinliklər həyatın normal axarını mümkünsüz edir. Beynəlxalq vasitəçilərin sülh cəhdlərinə baxmayaraq, ölkədə sabitlik hələ də uzaq görünür.

**Yəmən**

Yəmən dünyanın ən ağır humanitar böhranlarından birini yaşayır. Vətəndaş müharibəsi illərdir davam edir, milyonlarla insan aclıq və xəstəliklə mübarizə aparır. İnfrastruktur tamamilə dağılmış, dövlət qurumları isə fəaliyyət qabiliyyətini itirmiş vəziyyətdədir. Yəmən bu səbəbdən siyahının ilk beşliyini tamamlayır.

Ekspertlər bildirirlər ki, siyahıya düşən ölkələrdə səyahət etmək həyat üçün ciddi təhlükə yaradır. Cinayət, qaçırılma, terror aktları və silahlı qarşıdurmaların riski yüksəkdir. Buna görə də beynəlxalq təşkilatlar və hökumətlər vətəndaşlarına bu ölkələrə səfərdən çəkinməyi tövsiyə edir.



YENİ MÜSAVAT
N 160 (8770) 9 sentyabr 2025

# Çin pulu ölkəmizə gəlir

## Asiya nəhənginin maliyyə-bank sektoru ilə əməkdaşlıq Azərbaycana nə qazandıracaq?

**Azərbaycanla Çin arasında iqtisadi əlaqələrin inkişaf dinamikası sürətlə yüksəlir. Hazırda maliyyə, investisiya və bank sektorunda qarşılıqlı təmaslar artır, müxtəlif sənədlər imzalanır. Bir neçə gün əvvəl Azərbaycan və Çin Mərkəzi bankları arasında anlaşma memorandumu imzalanıb.**

Bir sıra mütəxəssislərə görə, Çinlə imzalanan bu sənəd Azərbaycanda kredit faizlərinə mütərəqqi planda təsir edə bilər. Əgər Azərbaycan və Çin arasında kredit xətti yaradılarsa, bu, banklara yuan likvidliyinə daha asan çıxış imkanı verəcək, xüsusilə ticarət əməliyyatlarının maliyyələşdirilməsində valyuta risklərini azaldacaq. Bunun nəticəsində ticarətyönümlü kreditlərin faiz marjasında müəyyən yumşalma baş verə bilər.

Mərkəz banklarla yanaşı, Çin və Azərbaycanın ən böyük suveren fondları arasında da sıx təmaslar başlayıb. Hazırda Azərbaycan Dövlət Neft Fondunun (ARDNF) İcraçı direktoru İsrafil Məmmədovun rəhbərlik etdiyi nümayəndə heyəti Çində işgüzar səfərdədir. ARDNF-nin nümayəndə heyətinin Çin İnvestisiya Korporasiyasının sədri və icraçı direktoru Qingsong Zhang ilə görüşü keçirilib. Görüşdə ARDNF və Çin İnvestisiya Korporasiyası arasında əməkdaşlığın konkret istiqamətləri üzrə müzakirələr aparılıb, ortaq layihələrin həyata keçirilməsi üzrə növbəti addımlar müəyyən edilib.



**İqtisadçı-ekspert Elman Sadıqovun sözlərinə görə, mərkəz banklar arasında rəsmi əməkdaşlıq strateji məsələdir:** "Bir qayda olaraq yaxın əlaqələri olan dövlətlərin mərkəz bankları anlaşma memorandumu imzalayırlar. Belə sənədlər ölkələr arasındakı siyasi-iqtisadi münasibətlərin dərinləşməsinin bir istiqaməti kimi çıxış edir. Onlar daha çox təcrübə mübadiləsi, bir çox proseslərə vahid yanaşma, monetar siyasət və digər sahələrdə qarşılıqlı faydalı əməkdaşlığı nəzərdə tutur. Açığını deyim, mənim Azərbaycan və Çin mərkəz bankları arasında imzalanan memorandum barədə rəsmi açıqlanandan kənarda hər hansı informasiyam yoxdur. Yəni konkret olaraq hansısa əlavə istiqamətlər müəyyənləşibmi, bilmirəm. Amma düşünmürəm ki, siyasət uyğunlaşması, təcrübə mübadiləsindən irəli gedən nələrsə olsun. Yalnız bir məqam var ki, iki ölkənin bankları arasında əlaqələrin dərinləşməsini stimullaşdırmaq üçün müddəanın olması müsbət amil ola bilər. Bu halda memorandum imkan verəcək ki, Azərbaycan Mərkəzi Bankı hansısa Azərbaycan bankına Çinin bu və ya digər bankı ilə əməkdaşlıq əlaqələri qurmaqda texniki və məsləhət yardımı göstərsin. Yəni tutalım ki, Azərbaycan banklarından biri Çində bir bankla əməkdaşlığa başlayıb sindikatlaşdırılmış kreditlər vermək, birgə layihələrdə iştirak etmək, yaxud hansısa ucuz maliyyəyə çıxış üçün tərəfdaşlıq qurmaq istəyir, bu halda mərkəzi banklar arasında koordinasiya ətraflı məlumatların əldə olunmasına, risklərin daha az olmasına imkan yaradır. Bu baxımdan, Çin Mərkəz Bankı ilə Azərbaycan Mərkəzi Bankının əməkdaşlığı hər iki tərəf üçün sərfəlidir".

**Ekspertə görə, Çin banklarının hazırda ölkə xaricinə çıxmaq, müxtəlif ölkələrdə investisiya imkanları qazanmaq ehtiyacları var:** "Çin banklarının genişlənməyə, daha çox ölkə xaricinə çıxmağa ehtiyacları var. Bizim banklarda da belə ehtiyac hiss olunur. Bu gün bizim bank sektorumuzun böyümə imkanlarını məhdudlaşdıran əsas amil xaricə çıxışın olmaması, ölkə daxilində məhdudlaşmasıdır. Belə imkan yaranarsa, bank sektorunda likvidlik problemi aradan qalxar, bankların genişlənməsi üçün əlverişli şərtlər formalaşar.

Çinlə Azərbaycan mərkəz bankları arasında əməkdaşlığın qurulması həm də bizneslər arasında əlaqələrin keyfiyyətinin artmasına gətirib çıxara bilər".

Qeyd edək ki, mərkəz banklar arasında münasibətlərin inkişafı Azərbaycanın Çinlə ticarət əlaqələrində səmərəliliyi artıra bilər. Belə ki, son illərdə Çin Azərbaycanın idxalında birinci yerə yüksəlib. 2024-cü ildə iki ölkə arasında ticarət dövriyyəsi 20,7 faiz artaraq 3,744 milyard dollara çatıb. Çin Azərbaycanın 4-cü ən böyük ticarət tərəfdaşı olmaqla ölkənin ümumi xarici ticarət dövriyyəsində 7,9 faiz paya sahibdir. İdxalda isə Çin 17,69 faizlə lider mövqedədir. Rəsmilərin açıqladığı məlumata görə, Azərbaycanda Çin kapitalı ilə yaradılmış 375 şirkət mövcuddur, onlardan 298-i aktiv fəaliyyət göstərir.

Qeyd edək ki, hazırda Azərbaycanın Şahin Mustafayev Çində səfərdədir. Onun Çin-Azərbaycan investisiya əməkdaşlığı üzrə işçi qrupun ilk iclasına sədrlik edəcəyi gözlənilir.

Azərbaycan yüksək texnologiyalar, innovasiyalar sahələrində də Çin şirkətləri ilə əməkdaşlığı genişləndirməyə can atır. Bundan əlavə, rəsmi Bakı Çinin Orta dəhlizin inkişafı baxımından müstəsna rolunu yüksək qiymətləndirməklə, bu sahədə də Pekinlə sıx əməkdaşlıqda maraqlıdır. Xüsusilə Çinin "Bir kəmər, bir yol" təşəbbüsünə qoşulmaqla Azərbaycan onun icrasına töhfə verməklə yanaşı, bu layihənin verəcəyi üstünlüklərdən də bəhrələnmək niyyətindədir.

Azərbaycan Dəmir Yollarının məlumatına görə, bu ilin yanvar-iyul aylarında Azərbaycan tərəfi Çindən Orta dəhlizlə göndərilən 225 blok-qatar qəbul edib. Bu, ötən ilin eyni dövrü ilə müqayisədə 2 dəfəyə yaxın artım deməkdir. İlin sonunadək isə 400-dən çox blok-qatarın qəbulu gözlənilir. Ticarət və tranzit əlaqələrinin genişlənməsi fonunda bank-maliyyə sistemləri arasında münasibətlərin inkişafı son dərəcə zəruridir. Bu, ticarət əməliyyatlarının maliyyələşdirilməsinin asanlaşdırılması, bizneslər arasında əlaqələrin daha səmərəli olması baxımından vacibdir.

Bank-maliyyə sektorunda əməkdaşlığın dərinləşməsi Çinlə Azərbaycan arasında turizmin inkişafı baxımından da zəruridir. Belə ki, keçən il Azərbaycana gələn Çin turistlərinin sayında əhəmiyyətli artım qeydə alınıb. 2024-cü ildə Azərbaycana səfər edən Çin vətəndaşlarının sayı 2023-cü illə müqayisədə 93 faiz artaraq 44 min 800 olub. Rəsmi məlumata əsasən, bu ilin 7 ayı ərzində 34 mindən çox Çin vətəndaşı ölkəmizə gəlib ki, bu da ötən ilin eyni dövrü ilə müqayisədə 56 faiz artım deməkdir. Bu artımda Azərbaycanın Çin vətəndaşları üçün birtərəfli qaydada vizanı ləğv etməsi mühüm rol oynayıb. Bu ilin aprelində isə Çin Azərbaycan vətəndaşları üçün vizanı ləğv edib. Artıq iyul ayından başlayaraq Azərbaycan vətəndaşlarının bu imkandan aktiv şəkildə bəhrələnməyə başladığı bildirilir.

Göründüyü kimi, Azərbaycanla Çin arasında iqtisadiyyatın çoxsaylı sektorlarında əməkdaşlıq sürətlə inkişaf etdirilir. Bu əlaqələrin dərinləşməsi ölkələrin maliyyə-bank sahəsindəki əməkdaşlıqla tamamlanmalıdır. Nəzərə alsaq ki, Azərbaycan həm də Çindən ölkə iqtisadiyyatına yatırımların cəlb olunmasında maraqlıdır, onda maliyyə sisteminin prosesdən kənarda qalmasının mümkün olmadığını görmək mümkündür.

Çinlə banklararası əlaqənin dərinləşməsi həm də Azərbaycanın qeyri-neft ixracında Rusiyadan asılılığın azaldılması baxımından vacibdir. Xüsusilə kənd təsərrüfatı məhsullarının ixrac bazarının diversifikasiyası baxımından Çin ən böyük imkanlara malik ölkələrdən biridir. Bu baxımdan, banklar arasında əməkdaşlığın inkişafı qeyri-neft məhsullarının Çinə ixracının asanlaşmasında mühüm rol oynaya bilər.

**Dünya SAKİT, "Yeni Müsavat"**




# Məşhur turizm şirkətinin təsisçisi həbs edildi

**Baş Prokurorluğa özəl turizm agentliyi qismində fəaliyyət göstərən MMC-lər tərəfindən turpaketlərin və aviabiletlərin alınması ilə əlaqədar vətəndaşların aldadılması faktları ilə bağlı müraciət edilib.**

Baş Prokurorluqdan verilən xəbərə görə, müraciətdə deyilir ki, özəl turizm agentliyi qismində fəaliyyət göstərən "JOY TOUR" və "JOY TRAVEL" məhdud məsuliyyətli cəmiyyətlərinin vəzifəli şəxslərinin qanunsuz əməllərinə dair Bakı şəhəri Xətai Rayon Prokurorluğuna çoxsaylı müraciətlər daxil olub.

Həmin müraciətlər əsasında aparılmış araşdırmalarla müəssisənin təsisçisi İlyasov Rəşad İsgəndər oğlunun öz qulluq mövqeyindən qulluq mənafeyinin ziddinə istifadə edərək müxtəlif xarici ölkələrə səyahət etmək üçün turpaketlərin və aviabiletlərin alınması məqsədilə müəssisəyə müraciət edən 20-dən artıq şəxsdən aldatmaqla və etibardan sui-istifadə etməklə pul vəsaitlərini alaraq şəxsi ehtiyaclarına sərf edib dələduzluq etməsinə əsaslı şübhələr müəyyən edilib.

Fakta görə rayon prokurorluğunda Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 178.2.2 (dələduzluq, təkrar törədildikdə), 178.2.4 (dələduzluq, xeyli miqdarda ziyan vurmaqla törədildikdə) və 308.1-ci (vəzifə səlahiyyətlərindən sui-istifadə) maddələri ilə cinayət işi başlanıb, Rəşad İlyasov həmin maddələrlə təqsirləndirilən şəxs qismində cəlb edilərək müstəntiqin vəsatəti və ibtidai araşdırmaya prosessual rəhbərliyi həyata keçirən prokurorun təqdimatı əsasında məhkəmənin qərarı ilə onun barəsində həbs-qətimkan tədbiri seçilib.

Hazırda ibtida istintaq çərçivəsində "JOY TOUR" və "JOY TRAVEL" məhdud məsuliyyətli cəmiyyətlərində baş vermiş hüquqpozmalar nəticəsində vurulmuş maddi ziyanın və həmin hüquqpozmalara məsul şəxslərin müəyyən edilməsi məqsədilə müəssisələrin maliyyə-təsərrüfat fəaliyyətinin kompleks yoxlanılması üçün auditor yoxlaması təyin edilməklə icrası Azərbaycan Respublikasının Auditorlar Palatasına tapşırılıb və müvafiq yoxlamaların nəticəsindən asılı olaraq baş vermiş cinayətin bütün iştirakçılarının ifşa və məsuliyyətə cəlb olunması təmin olunacaq.

Bununla əlaqədar, təqsirləndirilən şəxsin qanunsuz əməllərinə məruz qalmış vətəndaşlardan Bakı şəhəri Xətai Rayon Prokurorluğuna müraciət etmələri xahiş olunur.

# Daha iki ölkədə qadınlar əsgər gedəcək - bəs bizdə...

## Azərbaycan Silahlı Qüvvələrinin bütün qoşun növlərində qadın hərbi qulluqçular xidmət aparırlar

**Yaponiya Müdafiə Nazirliyi qadınların ölkənin silahlı qüvvələrinə qəbulu ilə bağlı son məhdudiyyətləri aradan qaldırıb. Belə ki, avqustun 1-dən etibarən qadınlar hətta nüvə, bioloji və kimyəvi müdafiə bölmələrində də xidmət edə biləcəklər. Hərbi idarə bu addımını bu sahələrdə təhlükəsizlik tədbirlərinin artırılması ilə izah edib.**

Latviyanın müdafiə naziri Andris Spruds isə bəyan edib ki, ölkənin təhlükəsizliyini möhkəmləndirmək və silahlı qüvvələrin gücünü artırmaq məqsədilə 2028-ci ildən qadınların da məcburi hərbi xidmətə cəlb olunması planlaşdırılır. Nazir bildirib ki, bu addım yalnız orduya yeni qüvvələrin cəlb edilməsi deyil, həm də gender bərabərliyinin təmin olunması baxımından vacibdir.

"Bloomberg"in məlumatına görə, Latviya 2021-ci ildə 15 min nəfər olan ordusunun sayını 2028-ci ilə qədər iki dəfədən çox artıraraq 31 min nəfərə çatdırmaq istəyir. Hazırda ölkədə milli müdafiə strategiyası çərçivəsində könüllülərin, peşəkar hərbçilərin və məcburi xidmətə çağırılanların sayı artırılır. Qadınların da bu prosesə qoşulması ilə Latviya ordusunun daha çevik və sayca böyük hərbi qüvvəyə çevriləcəyi vurğulanır.

Bildirilir ki, Azərbaycanda qadınların da hərbi xidmətə könüllü olaraq qatılması üçün hüquqi baza formalaşdırılması istisna edilmir. Son illərdə bir sıra xarici ölkələrdə qadınların da kişilərlə bərabər hərbi xidmətə cəlb edilməsi diqqət çəkir. İsrail, Norveç, ABŞ və Kanada kimi ölkələrdə qadınlar könüllü və ya məcburi qaydada ordu sıralarında yer alır, bəzi hallarda döyüş bölgələrində də xidmət edirlər.

Bəs bizim ölkəmizdə qadınları həqiqi hərbi xidmətə cəlb edilməsi nə qədər realdır? Ümumiyyətlə, qalib Ordumuzda buna ehtiyac varmı? Yoxsa söhbət təkcə silahlı qüvvələrin say cəhətdən artırılmasından getmir, gender bərabərliyi, qadınların da döyüşə hazırlıq təcrübəsinin olması baxımından belə bir qərar mümkündürmü, yoxsa mental dəyərlərimizə uyğun deyil?

Mövzu ilə bağlı **hərbi ekspert Ramil Məmmədli** "Yeni Müsavat"a danışıb. Ekspert qadınların məcburi hərbi xidmətə çağırılmasını məqsədəuyğun hesab etmədiyini deyib: "Ümumiyyətlə, bu mövzu zaman-zaman Azərbaycan mediasında müzakirə mövzusuna çevrilib. Bununla bağlı müxtəlif müzakirələrə çıxışlar da edilib, hətta efirlərdə də bu barədə danışıqlar aparılıb. Ümumilikdə bu, olduqca zərərli bir tendensiyadır - Azərbaycan cəmiyyətində qadınların məcburi hərbi xidmətə çağırılmasının müzakirə edilməsi məsələsi.

Bir sıra Qərb ölkələrində, o cümlədən İsraildə qadınların hərbi xidmətə cəlb olunması qanunla tənzimlənir. İsrail nümunəsində bu, gender bərabərliyi məsələsinə başqa aspektdən yanaşmaqla izah olunur. Lakin Azərbaycanda, Qafqazda, eləcə də türkdilli müsəlman ölkələrində əsrlərdir formalaşmış və daşlaşmış bir ictimai ənənə var: qadının ailədə, cəmiyyətdə xüsusi yeri mövcuddur. Qadın mühüm postlar tuta bilər, mülki təyinatlı strukturlarda, hətta hərbi təyinatlı sahələrdə də müvafiq vəzifələrdə çalışa bilər. Amma bu, onların kişilərlə eyni sırada məcburi hərbi xidmətdə addımlaması demək deyil.

Bununla belə, demək istərdim ki, Azərbaycan Silahlı Qüvvələrinin bütün qoşun növlərində - Müdafiə Nazirliyi, Dövlət Sərhəd Xidməti, Daxili Qoşunlar, Daxili İşlər Nazirliyi, Dövlət Təhlükəsizliyi Xidməti və Xarici Kəşfiyyat Xidmətində qadın hərbi qulluqçular xidmət aparırlar. Onların xidmətə cəlb olunması könüllülük əsasında həyata keçirilir.

Bəli, Azərbaycanda da qadınların könüllü olaraq hərbi xidmətə qoşulması üçün hüquqi baza formalaşdırılması istisna edilmir. Diqqətinizə çatdırım ki, qadınların hərbi xidmətə könüllü şəkildə qoşulması və



hərbçi olması Azərbaycan qanunları ilə tənzimlənir. Hazırda qeyd etdiyim güc strukturlarında qadın hərbi qulluqçular fəaliyyət göstərir.

Lakin qoşun növlərində ağır xidmət yerlərində bu həyata keçirilmir. Ümumiyyətlə, qadınların məcburi hərbi xidmətə çağırılması təcrübəsi adətən əhalisi az olan, kişi vətəndaşlarının sayı kifayət etməyən ölkələrdə ölkənin müdafiə qabiliyyətini gücləndirmək məqsədilə tətbiq edilir. Əks təqdirdə, qadınların məcburi hərbi xidmətə çağırılması məqsədəuyğun hesab edilmir.

Yeni bu mövzunun hər dəfə ölkəmizdə müzakirəyə çıxarılması, sadəcə olaraq, belə bir informasiya ilə Azərbaycan cəmiyyətinə müəyyən fikirləri təlqin etmək, məsələni adiləşdirmək və sonda hansısa mərhələdə qadınların məcburi hərbi xidmətə cəlb olunması ilə bağlı qərarın verilməsinə zəmin yaratmaq məqsədi daşıyır.

Düşünürəm ki, Azərbaycanda ölkəni qoruyacaq, dövlətin müdafiəsini təmin edəcək kifayət qədər kişi var. Azərbaycan gənclər ölkəsidir, əhalisinin çoxunu gənclər təşkil edir. Ermənistan üzərində qələbə qazandığımızı nəzərə alsaq da, Azərbaycan kişisinin gücü və imkanları hələ də tam dəyərləndirilməyib. Hesab edirəm ki, Azərbaycan bu sahədə - ordunun inkişafı, müdafiə sənayesinin gücləndirilməsi istiqamətində mühüm uğurlara imza atacaq".

**"Təmiz Dünya" Qadınlara Yardım İctimai Birliyinin sədri Mehriban Zeynalova da qadınların məcburi əsgərliyə cəlb edilməsini doğru hesab etmədiyini deyib:** "Bir çox ölkələrin təcrübəsində, o cümlədən İngiltərədə və Türkiyənin özündə könüllü əsgərliyə getmək praktikasına rast gəlirik. Onların qanunvericiliyində bu, ya ödənişlə, ya da müəyyən şərtlər çərçivəsində həyata keçirilir. Əgər kişilər üçün bu könüllülük prinsipi ilə mümkündürsə və orduya hazırlıqlı əsgər lazımdırsa, hansı qadın buna maraq göstərirsə, ona məhdudiyyət qoyulmamalıdır. Yox, əgər bu, məcburi qaydada tətbiq edilirsə, hesab edirəm ki, bu düzgün deyil. Seçim və bərabərlikdən danışırıqsa, qadın özü istədiyi halda hərbi xidmətə getməlidir.

Xatırladım ki, 2-ci Qarabağ müharibəsində xeyli sayda qadınımız müharibəyə getmək üçün müraciət etmişdi. Birinci Qarabağ müharibəsində isə qadınların birbaşa ön cəbhədə döyüşdükləri faktlarla təsdiqlənib. Bu da göstərir ki, qadınlarımızın vətənpərvərlik ruhu yüksəkdir. Amma əsgərlik məsələsində daha məqsədəuyğun yol məcburilik deyil, könüllülük imkanlarının yaradılması olardı. Qadın hərbçi olmaq istəyirsə, bunun üçün xüsusi şərait və infrastruktur qurulmalıdır. Hətta ayrıca qadın batalyonlarının yaradılması da faydalı ola bilər. Mənə elə gəlir ki, bu proses məcburi yox, seçimin ixtiyarına buraxılmalıdır.

Ümumiyyətlə, müşahidə edirik ki, dünyanın bir çox ölkələri silahlanmaya doğru gedir. Bu da onu göstərir ki, həmin ölkələrdə müəyyən narahatlıq və gərginlik mövcuddur. Biz daim sülhdən danışırıq, bölgədə təhlükəsizliyi gücləndirməyə çalışırıq. Amma eyni zamanda digər ölkələr qadınların da orduda xidmət etməsini təşviq edir, bu isə əslində yeni silahlanma yarışının bir hissəsi kimi görünür. Hesab edirəm ki, bu, yaxşı işarə deyil".

❑ **Xalidə GƏRAY,**
**"Yeni Müsavat"**

# Bakıda Süni İntellekt Akademiyası açıldı

## "AI Academy" "AZCON Holding"in dəstəyi ilə fəaliyyət göstərəcək

**Sentyabrın 8-də Bakıda Süni İntellekt Akademiyasının ("AI Academy") açılışı olub. Bu barədə Rəqəmsal İnkişaf və Nəqliyyat Nazirliyi məlumat yayıb. Tədbirdə rəqəmsal inkişaf və nəqliyyat naziri Rəşad Nəbiyev, elm və təhsil naziri Emin Əmrullayev iştirak ediblər.**

Açılış mərasimində akademiyanın fəaliyyət planı, təhsil proqramları və ölkədə süni intellekt ekosisteminin inkişafına dair qarşıya qoyulan hədəflərlə bağlı məlumat verilib. İştirakçılar tədris mühiti və yaradılmış şəraitlə tanış olub, tələbələrlə təhsil prosesinə hazırlıq, onların gözləntiləri və gələcək planları barədə fikir mübadiləsi aparıblar.

Qeyd edək ki, "AI Academy" "AZCON Holding"in dəstəyi ilə fəaliyyət göstərəcək tədris mərkəzidir. Akademiya "Azərbaycan Respublikasının 2025-2028-ci illər üçün süni intellekt Strategiyası"na əsasən yaradılıb.



Süni İntellekt Akademiyasının əsas məqsədi süni intellekt sahəsində mütəxəssislər hazırlamaq və ölkədə rəqəmsal transformasiyanı sürətləndirməkdir. Akademiya həmçinin gələcəkdə Azərbaycanı regionda süni intellekt təhsili və innovativ layihələrin tətbiqi üzrə aparıcı mərkəzə çevirməyi hədəfləyir.

Tədris proqramları beynəlxalq standartlara uyğun hazırlanıb və dünyanın aparıcı universitetlərinin təcrübəsinə əsaslanır. Akademik heyət süni intellekt və müasir texnologiyalar sahəsində zəngin təcrübəyə malik mütəxəssislərdən ibarətdir.

Akademiyanın fəaliyyətində qlobal elmi mühitə inteqrasiya prioritet istiqamətlərdən biridir. Bu məqsədlə süni intellekt sahəsində dünyanın aparıcı ali təhsil müəssisələri olan Massaçusets Texnologiya İnstitutu (MIT), Kaliforniya Universiteti, Karnegi Mellon Universiteti, Harvard Universiteti və Stanford Universiteti ilə əməkdaşlıqlar qurulub. Bu nüfuzlu universitetlərin professor və alimləri akademiyaya qonaq mühaziraçi kimi dəvət olunacaqlar.

Süni İntellekt Akademiyası fəaliyyətində elmi-tədqiqat işləri və innovativ layihələrin hazırlanması kimi istiqamətlərə xüsusi önəm verir. Burada təhsil alan gənclər və mütəxəssislər startap ideyaları üzərində işləmək, tətbiqi layihələrdə iştirak etmək və beynəlxalq təcrübədən faydalanmaq imkanına malik olacaqlar.

Tədbirdə həmçinin süni intellekt geniş dil modeli prototipi təqdim olunub. Bu prototip ümumilikdə 10 milyard token və 1.2 milyon sintetik məlumat üzərində istiqamətli öyrənmə və tənzimləmələr aparılmaqla ərsəyə gətirilib. Layihə Azərbaycanın suveren süni intellekt potensialının mümkünlüyünü nümayiş etdirməklə yanaşı, milli innovasiya ekosisteminin inkişafında mühüm mərhələ kimi dəyərləndirilir.

"Süni İntellekt Akademiyasının yaradılması ölkədə yeni nəsil mütəxəssislərin yetişdirilməsi, rəqəmsal iqtisadiyyatın gücləndirilməsi və Azərbaycanın qlobal süni intellekt xəritəsində mövqeyinin möhkəmləndirilməsi istiqamətində strateji əhəmiyyət kəsb edir", - deyə Milli Süni İntellekt Mərkəzinin direktoru Tuncay Bağırov bildirib.

Akademiyanın təqdim etdiyi bütün tədris proqramları tam təqaüdlü əsaslarla həyata keçirilir. Proqramlara qəbulun növbəti mərhələləri və digər yeniliklər barədə məlumatlar "AI Academy"nin rəsmi veb-saytı və sosial media hesablarında yayımlanacaq.

YENİ MÜSAVAT
N 160 (8770) 9 sentyabr 2025



# Bakının bu məktəblərində dərslər başlayıb

**Azərbaycanda dərslər sentyabrın 15-i başlasa da, Bakıda fəaliyyət göstərən bir sıra özəl təhsil müəssisələri artıq tədris prosesinə başlayıb.**

Bakı Beynəlxalq Məktəbində (BIS) dərslər avqustun 21-də, Beynəlxalq Azərbaycan Məktəbində (TISA) isə avqustun 30-da başlayıb.

Sentyabrın 1-dən "İdrak" liseyi (Bakı filialı), "Evrika" liseyi və SABIS SUN Beynəlxalq Məktəbinin 5-12 yaş qruplarında dərslərə start verilib.

Sentyabrın 2-də Heydər Əliyev adına Müasir Təhsil Kompleksində və SABIS SUN Beynəlxalq Məktəbinin 1-4-cü siniflərində dərslər başlanıb.

Sentyabrın 3-dən isə Bakı Oksford Məktəbi, Azərbaycan Britaniya Kolleci (ABC), Bakı Beynəlxalq Təhsil Kompleksi (BIEC) və "Kaspi" liseyinin 9, 10 və 11-ci sinifləri dərsə başlayıb.

Xəzər Universiteti Dünya Məktəbinin Bakı filialında sentyabrın 5-də, Sumqayıt filialında isə 12 sentyabrdan etibarən dərs ilinin başlanması nəzərdə tutulur.

# 20 nömrəli məktəbin direktoru işdən çıxarıldı



Esmira Ağayeva

**Bakı şəhəri 20 nömrəli məktəb-liseyin direktoru Esmira Ağayeva vəzifəsindən azad edilib.**

Məlumata görə, onun yerinə hələlik təyinat olmayıb. O, 2016-cı ildə Nizami rayonu V.Sadiqov adına 214 nömrəli məktəbə, 2020-ci ildə Yasamal rayonu A.Hüseynzadə adına 20 nömrəli məktəb-liseyə direktor vəzifəsinə təyin olunub.

# Məktəbli geyimləri ilə bağlı yeni məlumat



**Ümumi təhsil müəssisələrində tətbiq edilən vahid məktəbli geyimlərinin əldə edilməsinin asanlaşdırılması və valideynlər üçün əlçatanlığın təmin edilməsi məqsədilə Bakı şəhəri üzrə 29 satış məntəqəsi fəaliyyət göstərir.**

Bu barədə Bakı Şəhər üzrə Təhsil İdarəsindən məlumat verilib.

Bildirilib ki, vətəndaşlar onlara ən yaxın istənilən satış məntəqəsinə müraciət edə bilərlər. Məktəbli formalarının əldə edilməsi üçün seçim sərbəst şəkildə həyata keçirilir. Valideynlərin məqsədli şəkildə hansısa satış məntəqəsinə yönləndirilməsi yolverilməzdir.

Valideynlər məktəbli formaları ilə bağlı hər hansı sual və ya müraciətləri olduğu halda Bakı Şəhəri üzrə Təhsil İdarəsinin 146-1 Çağrı Mərkəzi vasitəsilə anonim olmadan məlumat verə bilərlər.

Qeyd edək ki, 2022-ci ildə hər bir ümumi təhsil müəssisəsinin Pedaqoji Şurası tərəfindən 4 növ geyim formasından birinin tətbiqi ilə bağlı müvafiq qərar qəbul edib.

**Elan**

Səfərov Mübariz Malik oğluna Heydər Əliyev adına Neft Emalı Zavodu tərəfindən verilmiş əmək kitabçası itdiyi üçün etibarsız sayılır.

# Bakıda tələbələrə kirayə fırıldağı

## Onlayn elanlar vasitəsilə yüzlərlə gənc aldadılır - hüquqşünas və DİN xəbərdarlıq edir



**Mənzillərin onlayn kirayə verilməsi prosesində dələduzluq edənlərin sayı artıb. Yeni tədris ilinin başlamasına sayılı günlər qalıb. Bölgələrdə yaşayan tələbələr özlərinə rahat olsun deyə qalacaqları evi onlayn qaydada tapıb, kirayələməyə üstünlük verirlər.**

Onlar elan saytlarında bəyəndikləri evi kirayələmək üçün qeyd edilən nömrə ilə əlaqə saxlayır. Razılaşmadan sonra qarşı tərəfə əvvəlcədən beh adı altında müəyyən bir məbləğ, yaxud da evin bir aylının pulunu ödəyirlər. Təkrar zəng etdikdə isə "ev sahibinə" zəng çatmadığını görürlər. Beləcə yüzlərlə tələbə onlayn dələduzluğun qurbanına çevrilir.

Ümumiyyətlə, virtual dələduzlar yeni tədris ilinin başlaması ilə əlaqədar saxta vədlərlə bölgələrdən geri dönən, tələbə adı qazanan gəncləri və valideynlərini hədəf seçə, onların maddi vəsaitini mənimsəyə bilərlər. Ssenari demək olar ki, eynidir. Siz elan saytında kirayə verildiyi yazılan evi seçirsiniz və əlaqə saxlayaraq bəyəndiyinizi bildirirsiniz. Elan sahibi, yeni dələduz sizdən beh və ya bütöv kirayə haqqı istəyir. İnandırmaq üçün hətta sizə şəxsiyyət vəsiqəsi də göndərir. Əslində isə elandakı evin görüntüləri də, məlumatlar da saxtadır, şəxsiyyət vəsiqəsi isə sizdən əvvəlki qurbanlardan birinə məxsusdur. Bu səbəbdən, evi görməmiş, mənzili kirayə verəni tanımamış pulu onlayn yolla ödəmək tövsiyə olunmur.

Təhsil sahəsi üzrə ekspert Adil Vəliyev bu günlərdə sosial media hesabında bu barədə fakt təqdim edib. O yazıb: "Yeni tədris ili başlamadan virtual oğrular işə başladılar. Keçən gün bir dostumuzun rayonda yaşayan qohumları, Bakıda universitetə qəbul olduqları üçün elan saytlarından birindən ev bəyəniblər. Saytda yazılan nömrə ilə əlaqə saxlayanda, qarşı tərəf "tələbat çoxdur, istəyirsinizsə 100 manat beh (pul) göndərin, evi sizin üçün saxlayaq" deyib. Bəli, düşündüyünüz kimi, pul karta göndəriləndən sonra nömrəyə zəng çatmayıb... Əziz tələbələr və valideynlər, mümkün qədər universitet yataqxanalarına üz tutun, yer olmasa, bir neçə gün öncədən qəbul olduğunuz universitetin yerləşdiyi şəhər/rayona gələrək, ev sahibi ilə rəsmi müqavilə əsasında kirayə müqaviləsi bağlayın ki, daha sonrakı "qurban" siz olmayasınız..."

**Hüquqşünas Polad Mehdiyev** mövzunu "Yeni Müsavat"a şərh edərkən bildirdi ki, Azərbaycanda kirayə münasibətlərinin hüquqi çərçivəsi kifayət qədər geniş olsa da, praktiki tətbiq zamanı həm kirayə verən, həm də kirayəçi üçün müəyyən çətinliklər yaranır. O qeyd etdi ki, bu gün mənzillərin kirayə verilməsi ilə əlaqədar müqavilələrin təxminən 5 faizi rəsmiləşdirilir, bu da tərəflərin hüquqlarının qorunmasını olduqca zəiflədir: "Əslində Mülki Məcəllənin 33-cü fəsli (m. 685-698) kirayə müqaviləsini həm kirayəçi, həm də ev sahibinin maraqlarını balanslaşdırmaq üçün nəzərdə tutur. Müqavilə rəsmi bağlandıqda tərəflər əmlakın qorunması, kirayə haqqının sabitliyi və vaxtından əvvəl çıxarılma hallarına qarşı hüquqi təminat əldə edirlər. Lakin vergitutma və notariat prosedurları bir qədər mürəkkəbdir. Vergi Məcəlləsinə əsasən, əmlakını kirayə verən fiziki şəxs gəlirindən 14% vergi ödəməlidir. Bu vergi diferensiallaşdırılmadan tətbiq olunduğu üçün bəzi hallarda rəsmi müqavilələrdən yayınmaya səbəb olur. Əlavə olaraq, notarial təsdiq, rüsum və Forma-1 kimi sənədlərin tələb olunması tərəfləri əlavə xərcə salır. Halbuki beynəlxalq təcrübədə (məsələn, Türkiyə, ABŞ, Avropa ölkələri) kirayə müqavilələrinin sadə yazılı formada bağlanması kifayət edir, dövlətin müdaxiləsi isə əsasən mübahisələrin həlli mərhələsində tətbiq olunur. Qeyd etmək lazımdır ki, hazırda kirayə münasibətlərində dələduzluq halları da artmaqdadır. Xüsusilə tələbələr elan saytlarında gördükləri ev üçün beh və ya bir aylıq kirayə haqqını əvvəlcədən ödədikdən sonra "ev sahibinə" daha zəng edə bilmirlər. Bu, Azərbaycan Respublikası Cinayət Məcəlləsinin 178-ci maddəsi (dələduzluq) ilə cinayət tərkibi yaradır. Tələbələrin və ümumilikdə kirayəçilərin bu cür hallardan qorunması üçün əsas qayda yalnız yazılı müqavilə əsasında və rəsmi ödəniş üsulları ilə razılaşmaqdır. Əvvəlcədən ödəniş etmək istənildikdə isə həmin ödənişin müqavilədə təsbit olunması və rəsmi qəbzlə sənədləşdirilməsi zəruridir".

**P.Mehdiyevin fikrincə, hüquqi baxımdan daha təhlükəsiz mühit yaratmaq üçün müəyyən addımlar atıla bilər**: "İlk növbədə, icarə vergisinin diferensiallaşdırılması vacibdir - sosial status, əmlakın yerləşdiyi yer və gəlir səviyyəsi nəzərə alınaraq müxtəlif dərəcələr tətbiq olunmalıdır. İkincisi, sadə yazılı müqavilələrin hüquqi qüvvəsinin artırılması və notariat prosedurlarının tərəflərin istəyinə bağlı olması məqsədəuyğundur. Üçüncü, Forma-1 və əlavə razılıqların tələb olunması təcrübəsi sadələşdirilməlidir ki, kirayə münasibətləri üçün artıq bürokratik maneələr aradan qalxsın. Nəticə etibarilə, kirayə münasibətlərində qanuni mexanizmlərin tətbiqi həm vətəndaşların hüquqlarını qoruyar, həm də dövlət büdcəsinə əlavə gəlir gətirər. Sadələşdirilmiş və hüquqi baxımdan aydınlaşdırılmış mexanizmlər tətbiq olunduqda, həm kirayə verən, həm də kirayəçi daha etibarlı və şəffaf mühitdə münasibət qura bilər".

Mövzu ilə bağlı **Daxili İşlər Nazirliyinə də (DİN) sorğu ünvanladıq. DİN Mətbuat Xidmətinin əməkdaşı Elbrus İbrahimov** "Yeni Müsavat"a açıqlamasında bildirdi ki, "evlərin kirayəsi" kimi saxta səhifələr açıb insanların etibarından sui-istifadə edən şəxslər barədə polisə məlumatlar daxil olur.

**DİN rəsmisinin sözlərinə görə, həmin şəxslərin müəyyən olunması istiqamətində tədbirlər mütəmadi olaraq aparılır**: "Sosial media və elan saytları üzərindən ticarət edən vətəndaşlar diqqətli olmalıdırlar, çünki həm satan, həm alan tərəf dələduz ola bilər. Bu cür zənglər vətəndaşların sayta yerləşdirdiyi elanlarla bağlı ola bilər, yaxud əksinə, dələduz diqqəti cəlb etmək məqsədilə elan saytlarına real dəyərindən qat-qat aşağı qiymətə məhsul yerləşdirir. Əlaqə yaradanda isə özünün ölkədə olmadığı, yaxud uzaq məsafədə olduğunun əsas gətirərək ödənişi onlayn yolla edəcəyini və yaxud alacağını bildirir. Kiberdələduzların qurbanı olmamaq üçün vətəndaşlarımıza əmin olmadıqları səhifələrə və linklərə keçid etməməyi, bank kartı və şəxsi məlumatlarını heç kimlə bölüşməməyi tövsiyə edirik. Üzləşdikləri kiberdələduzluq halları ilə bağlı dərhal DİN-in 102 Zəng Mərkəzinə, həmçinin sosial şəbəkələrdə "Polisazərbaycan" rəsmi səhifələrinə məlumat vermələri xahiş olunur".

❑ **Nigar HƏSƏNLİ, "Yeni Müsavat"**

YENİ MÜSAVAT
N 160 (8770) 9 sentyabr 2025

# Metroda məsafəyə görə ödəniş

## Ekspert: "2030-cu ildən sonra metrolarda məsafəli ödənişin tətbiqini ehtimal etmək olar"

**"Bakı Metropoliteni" QSC aylıq və birdəfəlik gediş haqqı kartlarının tətbiqini nəzərdən keçirir. Qurum sədrinin müşaviri Emil Əhmədov jurnalistlərə açıqlamasında bildirib ki, müxtəlif sosial qruplara münasibətdə xüsusi yanaşmalar nəzərdə tutulur:**

"Tələbələr, sosial yardıma ehtiyacı olan insanlar və digər həssas qruplar üçün ayrıca güzəştli şərtlərin tətbiqi müzakirə mövzusudur. Aylıq və birdəfəlik gediş kartları, digər alternativ yanaşmalar nəzərdən keçirilir. Dünyada məsafədən asılı olaraq fərqli tarif modelləri tətbiq olunur. Bir çox ölkələrdə sərnişinlər qət edilən məsafəyə uyğun olaraq ödəniş edirlər. Azərbaycanda da bu istiqamətdə müəyyən müzakirələr aparılır".

Qeyd edək ki, yaşlı insanlar, uşaqlar, təqaüdçülər, tələbələr kimi qruplar üçün xüsusi güzəştlər tətbiq olunur. Belə differensiallaşdırılmış tariflər hər bir şəhərin iqtisadi vəziyyəti və əhalinin sosial durumunun öyrənilməsindən sonra müəyyən edilir. Bu, dünya təcrübəsində geniş yayılmış normal bir praktikadır.

Məsələn, Böyük Britaniya, Londonda ictimai nəqliyyat tarifləri diferensiallaşdırılıb. Burada sutkanın saatlarına, getdiyin əraziyə və zonalara görə qiymətlər dəyişir. Çin şəhərlərində (Pekin, Şanxay, Qvanqçjou) tariflər məsafəyə uyğun mərhələlərlə artır: məsələn, Pekində 6 km-ə qədər 3 yuan, hər əlavə məsafəyə isə 1-2 yuan əlavə olunur. Helsinki ictimai nəqliyyatı zonalara bölüb: A zonası üçün 3.20 avro, A-C zonaları üçün isə 4.40 avro ödənilir.

Berlin və Parisdə həm zonaya, həm də məsafəyə əsaslanan kombinə edilmiş model tətbiq olunur.

Sidneydə məsafəyə əsaslanan ödənişlə yanaşı, həftəlik üst limit tətbiq edilir ki, sərnişin çox gediş etsə də, müəyyən həddən artıq pul ödəməsin.

Xatırladaq ki, Azərbaycanda metroda gedişhaqqı 50 qəpikdir. Bu məbləğ hər stansiyaya görə necə dəyişə bilər? Yaxın məsafə üçün 50 qəpikdən ucuz olması, uzağa daha da artması mümkündürmü?

50 qəpiklik sabit tarif dəyişərsə, Bakı sakinlərinin büdcəsi necə təsirlənəcək? Dünya təcrübəsi göstərir ki, belə sistemlər adətən ədalətli hesab olunur. Amma Azərbaycanın sosial reallıqları nəzərə alınmadan tətbiq edilərsə, bu, əks reaksiyalara səbəb ola bilər.

**Nəqliyyat sahəsi üzrə ekspert Rauf Ağamirzəyev** "Yeni Müsavat"a açıqlamasında bildirib ki, metro seqmentində məsafəli ödənişin tətbiq edilməsi yaxın zamanlarda gözlənilmir: "Bu, gələcəkdə gündəmə gəlməli olan mövzudur. Hazırda bu məsələ o qədər də aktual deyil. Çünki metro şəbəkəsinin indi yetərincə çağırışları var. Yeni dövlət proqramı təsdiq olunub, "Bakı Metropoliteni" QSC-nin rəhbərliyinin qarşısında görüləcək işlərlə bağlı öhdəlik qoyulub. Biz bu işlərin ilkin mərhələsinin artıq müşahid edirik. "Dərnəgül" deposunun birinci mərhələsinə start verilib, bu ilin sonuna qədər tamamlanması nəzərdə tutulur. Xətlərin ayrılması layihəsinə gələn ilin əvvəlindən başlanılacaq və ilin sonuna kimi təhvil veriləcək. İlin sonunda isə fərqli istiqamətdə elan olunmuş yeni xətlərin tikintisinə start veriləcək. 2030-cu ilə qədər bu işlər görülməlidir. 10-11 yeni stansiyanın tikilməsi, xətlərin ayrılması və 3 müstəqil xətdin qısa intervalla hərəkəti təmin olunur. Əgər hazırda metro seqmentində 640 min arası günlük sərnişin qrafiki varsa, düşünürəm ki, 800 min və ya 1 milyona qədər artması gözlənilir".

**Ekspertin sözlərinə görə, 2030-cu ildən sonra metrolarda məsafəli ödənişin tətbiqini ehtimal etmək olar:** "İndiki vəziyyətdə onsuz da "Bakı Metropoliteni"nin görəcəyi işlər var. Bu işlər görüləndən, sərnişin axını parçalanandan və minimum intervalla hərəkət təmin ediləndən sonra qiymət məsələsi yerinə düşər. Hazırda isə məsafəyə görə qiymətin tətbiqi real deyil.

Böyük şəhərlərdə ictimai nəqliyyatın səmərəli təşkili üçün subsidiyalaşdırma geniş şəkildə tətbiq olunur. Bunun üçün əsas mexanizmlərdən biri isə "Brutto müqavilə"lərə keçiddir. "Brutto" modelinin əsas xüsusiyyəti hər kilometrə görə dövlət subsidiyasının ayrılmasıdır. Bu, həm avtobus, həm də metro seqmentində tətbiq oluna bilər və nəticə etibarilə bir çox vacib məsələlərin həllinə imkan yaradır. Bununla gündəlik, həftəlik, aylıq, üç, altı və 12 aylıq abunə biletləri, tələbələr, təqaüdçülər, əlillər və Vətən müharibəsi iştirakçıları üçün güzəştli və ya pulsuz keçidlər, müxtəlif nəqliyyat növləri arasında müəyyən vaxt aralığında pulsuz keçid sistemləri tətbiq oluna bilər. Bu model sərnişinlər üçün həm rahatlıq, həm də maliyyə baxımından qənaəti təmin edir. Bu model daşıyıcılara sabit gəlir imkanı yaradır və xidmət keyfiyyətinin yüksəldilməsi üçün motivasiya verir".

**İqtisadçı Xalid Kərimli deyir ki, ictmai nəqliyyatda şəhərdaxili məsafəyə görə fərqli qiymətlər təyin edilməlidir. Onun sözlərinə görə loyal müştərilərə də güzəştlər edilməlidir:** "Daha çox istifadəçiyə daha çox güzəştlər edilməlidir. Böyük şəhərlərdə, aylıq, rüblük, illik bilet qiymətləri fərqli olur. Bu bizdə də tətbiq edilməlidir. Tələbə ictimai nəqliyyatdan daha çox istifadə edirsə, illik kart alsın. İllik kart tabii ki, limitsiz istifadə hüququ verəcək. Bu zaman bir istifadədə xərc aşağı düşə bilər. Lakin istənilən halda metroda və avtobuslarda gediş haqlarının 50 qəpikdən aşağı düşməsini gözləmirəm.

Sistemi əziyyətli də olsa, dəyişmək lazımdır. Məsafəyə görə fərqli şərtlər daxilində ödəniş tələb etmək olar. Mən diferensiallaşma olmalıdır ki, gələcəkdə daha ədalətli qiymətlər olsun. Yaxın məsafə üçün indikindən daha aşağı qiymət olmayacaq. İslahatlar aparılmasa, ictimai nəqliyyatda yenidən qiymət artımın şahidi olacağıq".




❑ Şahanə RƏHİMLİ,
"Yeni Müsavat"




## 3 nəfərin ölümünə səbəb olan qəza ilə bağlı cinayət işi

**Bakıda yük avtomobilinin minik avtomobilinin üzərinə aşması səbəbindən 3 nəfərin ölümü ilə nəticələnən yol qəzası ilə bağlı cinayət işi başlanılıb.**

Faktla bağlı Cinayət Məcəlləsinin 263.3-cü (yol istismar qaydalarını pozma, iki və daha çox şəxsin ölümünə səbəb olma) maddəsi ilə cinayət işi başlanılıb, müvafiq ekspertizalar təyin edilib.

Qeyd edək ki, sentyabrın 6-da Binəqədi rayonu ərazisində 1976-cı il təvəllüdlü Əbdülov Vahid Vaqif oğlunun idarə etdiyi "DAF" markalı hərəkətdə olan zaman körpünün üzərindəki sərt döngədə idarəetməni itirərək körpüdən aşıb.

Aşma nəticəsində yolda işıqforun qırmızı işığında gözləməkdə olan 1978-ci il təvəllüdlü İbrahimov Yusif İbrahim oğlunun idarə etdiyi "Changan" markalı avtomobilin üzərinə düşüb. Hər iki avtomobilin sürücüsü, habelə hadisə zamanı "Changan" markalı avtomobildə sərnişin qismində olan 1982-ci il təvəllüdlü Hacıyev Abdulla Əkrəm oğlu ölüb.

Bundan başqa, hadisə zamanı 92 saylı avtobusda olan 2000-ci il təvəllüdlü Ağayeva Lalə Zeynal qızı və 2002-ci il təvəllüdlü Nəcəfova Fidan Namiq qızı döş qəfəsinin küt travmaları ilə xəstəxanaya yerləşdirilib. İlkin tibbi müayinə göstərildikdən sonra evə buraxılıblar.




## Paytaxtda avtobus qəzası -12 yaralı

**Bakıda ağır yol-nəqliyyat hadisəsi baş verib. Sərnişin daşıyan mikroavtobusla minik avtomobili toqquşub. Qala-Pirallahı yolunda baş verən yol-nəqliyyat hadisəsi səbəbilə sentyabrın 8-i saat 06:30 radələrindən etibarən 19 nəfər (18 qadın, 1 kişi) Sabunçu Tibb Mərkəzinin Təcili tibbi yardım şöbəsinə hospitalizasiya olunub.**

Bu barədə TƏBİB-dən məlumat verilib. Onların hər birinə zəruri tibbi xidmətlər göstərilib. Vəziyyətləri qənaətbəxş qiymətləndirilən 12 nəfər ambulator müalicə üçün evə buraxılıb. Hazırda tibb müəssisəsində 7 nəfərin müayinə və müalicəsi davam etdirilir.

Vəziyyətləri orta ağır qiymətləndirilir.

## Padarçöl yolunda yük maşınına çırpıldı

**Ağsuda ölümlə nəticələnən yol qəzası baş verib. Hadisə səhər saatlarında Şamaxı-Padarçöl yolunun Ağsu rayonunun Navahı kəndi ərazisindən keçən hissəsində qeydə alınıb.**

Modern.az xəbər verir ki, hərəkətdə olan minik avtomobili ilə yük maşını toqquşub. Qəza nəticəsində minik maşınında olan İsa Sadıqov hadisə yerində həyatını itirib. İlkin məlumata görə, xəsarət alanlar da var.

DİN-in Mətbuat Xidmətinin regional qrupundan bildirilib ki, faktla bağlı cinayət işi başlanılıb, araşdırmalar davam etdirilir.

YENİ MÜSAVAT
Son səhifə
N 160 (8770) 9 sentyabr 2025

## Bunları bilirsinizmi?

* İnsanda təqribi 2 milyon tər vəzi mövcuddur. Orta yaşlı adam hər litr tər tökdükdə 54% kalori itirir. Kişilər qadınlara nisbətən 40% çox tərləyirlər.
* İnsanın sağ ağciyəri sol ağciyərinə nisbətən özünə daha çox hava yerləşdirir.
* İnsan gözü 10 000 000 rəng çeşidi fərqləndirməyə qadirdir.
* İnsan ağzında 40 000 bakteriya mövcuddur.
* Papafobiya-Roma papasından qorxmaqdır.
* Açıq gözlə asqırmaq mümkün deyil.
* İnsan orqanizmində 2000-ə yaxın dad bilmə reseptoru var.
* İnsan orqanizmində olan piylər 7 ədəd sabun istehsalı üçün lazım olan miqdardadır.
* İnsan bədənində nerv impulsları saniyədə 90 metr sürətlə hərəkət edir.
* İl ərzində insan ürəyinin döyüntülərinin sayı 36 800 000-dir.
* Kişilər qadınlara nisbətən 10 dəfə çox daltonizmdən əziyyət çəkirlər.
* Uşaq doğulanda bədənində 300 sümük olur, böyüdükcə onlardan 206 qalır.
* İnsan sümüylərinin təqribi yarısı bilək və pəncədə yerləşir.
* Mavi gözlü insanlar digərlərinə nisbətən ağrıya daha həssasdırlar.
* Əl barmaqların dırnaqları ayaq barmaqların dırnaqları ilə müqayisədə 4 dəfə tez böyüyür.
* Ömür boyu insan dərisi 1000 dəfə dəyişir.
* Güclü işıq nəticəsində görmə qabiliyyəti itirmə halına "qar korluğu" deyilir.
* Qripə səbəb olan 100 müxtəlif virus mövcuddur.

Sentyabr

# Almaniya qida ehtiyatı yaradır



**Almaniyanın kənd təsərrüfatı naziri Aloys Rayner potensial müharibə vəziyyətində konservləşdirilmiş ravioli və mərci ehtiyatı yaratmağa çağırıb. Bu barədə "The Washington Post" məlumat yayıb. Nazir bildirib ki, onun üçün ərzaq təhlükəsizliyi ölkənin mümkün münaqişəyə hazırlanmasında hərbi texnikanın tədarükündən heç də az rol oynamır.**

Rayner ölkəni yeni konserv məhsulları ilə təmin etmək üçün plan təklif edib. O bildirib ki, təklif büdcəyə 90 milyon avroya başa gələcək. Eyni zamanda nazir qeyd edib ki, ehtiyatlar təkcə mümkün hərbi münaqişələr zamanı deyil, həm də təbii fəlakətlər və ya atom elektrik stansiyalarında qəzalar kimi gözlənilməz vəziyyətlər zamanı lazımdır.

## Yeməyi plastik qabda qızdıranda bu xəstəlik yaranır



**Son illər mikoplastiklərin insan sağlamlığına təsiri ilə bağlı müzakirələr artıb. Mütəxəssislər bildirirlər ki, bu maddə bədənə qida, hava və gündəlik istifadə olunan plastik məmulatlardan keçərək daxil ola bilər. Terapevt Anastasya Ağayeva mikoplastikin sağlamlığa zərərləri barədə məlumat verib.**

"Mikoplastik 0,001-5 mm ölçülü sintetik polimer hissəciklərindən ibarətdir və iki növü mövcuddur: ilkin (məqsədli istehsal olunan - kosmetika, tekstil və s.) və ikincili (plastik əşyaların günəş şüası, istilik və ya aşınma nəticəsində parçalanması ilə yaranan).

Mikroplastik insan orqanizminə əsasən qida vasitəsilə, havanın tərkibindəki toz və sintetik liflər, həmçinin plastik qablaşdırmada olan su ilə daxil ola bilər. Hazırda mikoplastikin insan sağlamlığına birbaşa mənfi təsirini sübut edən qəti elmi faktlar yoxdur. Mövcud məlumatların əksəriyyəti heyvanlar üzərində və laborator şəraitdə aparılan təcrübələrə əsaslanır. Bununla belə, narahatedici nəticələr də var: son araşdırmalara görə, son 8 ildə insan beynində mikoplastikin miqdarı 50% artıb, demensiya xəstələrində isə bu göstərici sağlam insanlara nisbətən 10 dəfə çox olub. ÜST-nin mövqeyinə görə mikoplastikin qida və içməli suda hansı səviyyədə təhlükəsiz ola biləcəyini müəyyən etmək üçün əlavə tədqiqatlara ehtiyac var".

Həkimlər söyləyib ki, bu kimi hallardan qorunmaq üçün plastik qabda yeməyi qızdırmamaq, suyu filtrdən keçirmək və şüşə qablaşdırmaya üstünlük vermək lazımdır.



## 60 faiz kişi tualetdən sonra əllərini yumur

**Kişilər tualetdən istifadə etdikdən sonra əllərini yumurlar. London Gigiyena və Tropik Tibb Məktəbinin mütəxəssisləri tədqiqat müddətində texniki xidmət stansiyalarının tualetlərinə yerləşdirilən maye sabunla konteynerləri xüsusi sensorlarla təchiz ediblər.**

Ziyarətçilər sabundan istifadə edən kimi sensorlar işə salınıb və qeydiyyat aparıb.

Kişilərin yalnız 30%-i tualetə getdikdən sonra əllərini sabunla yumağın vacibliyinə inanır. Qadınlar arasında bu faiz xeyli yüksəkdir. Müşahidə zamanı tualetlərə 250 mindən çox insanın girdiyi qeydə alınıb. Məlum olub ki, kişilərin yalnız 30%-nin tualetdən istifadə etdikdən sonra sabuna ehtiyacı var. Ancaq qadınlar arasında bu faiz daha yüksək idi - 60% -dən çox.

Belə ki, tualetin qarşısındakı xüsusi ekranlarda belə mesajlar peyda olub: "Su mikrobları öldürmür, sabun öldürür!", "Çirkli adam olmayın - sabundan istifadə edin!". Maraqlıdır ki, qadınlar əllərini sabunla yumaq lazım olduğunu xatırladan zənglərə, kişilər isə yuyulmamış əllərin "iyrəncliyi" və "çirkli insanlar" haqqında danışan mesajlara daha yaxşı cavab veriblər. Belə bir maraqlı fakt da diqqət çəkib. Əgər kimsə yanında dayanan şəxsin əlini sabunla yuduğunu görsə, o, özü də krana əlini uzadır. Şəxsi nümunə "sabun istifadəçilərinin" sayının 12 faiz artmasına səbəb olub.



## Kainatdakı ilk qalaktika kəşf edildi

**"Ceyms Uebb" kosmik teleskopundan istifadə edərək astronomlar kainat tarixinin ən erkən mərhələlərində mövcud olan qalaktikanı kəşf ediblər. Bu barədə "Daily Galaxy" yazır. Məlumata görə, yeni kəşf hazırda indi ən erkən və ən uzaq hesab edilən qalaktikadan 200 milyon il yaşlıdır. Alimlər "Kapotauro" adı verilən kosmik obyektin mənşəyinin aydınlaşdırılması məşğul olacaqlar.**

## Gel manikürlər bahalaşır

**Sentyabrın 1-dən etibarən Avropada gel manikür zamanı istifadə olunan TPO (trimetilbenzoil difenilfosfin oksid) maddəsinin qadağan olunması qiymətlərə birbaşa təsir edib. Artıq bir sıra ölkələrdə dırnaq xidmətləri bahalaşıb.**

TPO maddəsi niyə qadağan olundu?

Avropa Komissiyası TPO maddəsini reproduktiv sağlamlıq üçün potensial risk və mümkün kanserogen kimi tanıyaraq istifadəsini məhdudlaşdırıb. Maddə gel laklarda örtüyün polimerləşmə prosesini sürətləndirmək və dırnaqlara xarakterik parıltı vermək üçün istifadə olunurdu.

Mütəxəssislər bildirirlər ki, TPO bütün gel laklarında olmasa da, onun xüsusiyyətlərini əvəzləyəcək alternativlər daha baha başa gəlir və tətbiqi əlavə hazırlıq tələb edir.

Qadağa nəticəsində gözəllik salonları:

Köhnə TPO tərkibli məhsulları utilizasiya etməli,

Yeni tərkibli laklara keçməli,

Ustaları yeni materiallarla işləməyə hazırlamalıdırlar.

Bu keçid xərcləri isə nəticə etibarilə manikür prosedurlarının qiymətinin artmasına səbəb olur.

Yapon manikürün populyarlığı arta bilər

Bəzi mütəxəssislər hesab edirlər ki, bu dəyişikliklər təbii prosedurlara, məsələn, UV lampalar və kimyəvi maddələr əvəzinə minerallar və yağlardan istifadə edən yapon manikürünə marağın artmasına gətirib çıxara bilər.

Hazırda TPO ilə bağlı məhdudiyyətlər yalnız Avropa İttifaqı ölkələrində qüvvədədir. Böyük Britaniya və ABŞ-də hələ bu cür qadağalar tətbiq olunmasa da, ekspertlər yaxın gələcəkdə oxşar qərarların orada da qəbul ediləcəyini istisna etmirlər.

## Stetoskop 15 saniyədə ürək xəstəliklərinə diaqnoz qoyur

**Londonda alimlər süni intellektlə işləyən yeni stetoskop hazırlayıblar. Bu cihaz cəmi 15 saniyəyə ürək çatışmazlığını, ürək qapağı xəstəliklərini və ritm pozuntularını müəyyən edə bilir. Ənənəvi stetoskopdan fərqli olaraq, yeni cihaz həm ürək döyüntülərini, həm də qan axınını analiz edir və sürətli EKQ çəkir. Toplanan məlumat süni intellekt tərəfindən yoxlanılır və nəticə dərhal həkimin telefonuna göndərilir. Sınaqlar zamanı cihazdan istifadə olunan xəstələrdə ürək xəstəlikləri adi müayinələrlə müqayisədə 2-3 dəfə daha çox aşkar olunub.**

Mütəxəssislər bildirir ki, bu texnologiya ürək xəstəliklərinin daha erkən aşkar edilməsinə kömək edəcək və insanların vaxtında müalicə almasına imkan yaradacaq.

Səhifəni hazırladı: SELCAN

Baş redaktor:
Nazim SABİROĞLU

e-mail adres: yenimusavat@mail.ru

Ünvan: Bakı şəhəri,
R.Rüstəmov küçəsi
2528-ci məhəllə ev 44/d
Tel: 520 01 23 (24, 25, 26, 27, 28)

"Yeni Müsavat"ın kompüter mərkəzində yığılıb, səhifələnib,
"Son dakika" MMC-nin mətbəəsində çap edilib. Əlyazmalar geri qaytarılmır.
Müəlliflərlə redaksiyanın mövqeyi uyğun gəlməyə bilər.

Lisenziya N: B 114
SAYI: 1.500